# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

e-ISSN: 2789-6919

AEM

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.864**

**Cild: 3 Sayı: 6**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.864**

**Volume: 3 Issue: 6**

**Bakı – Baku**
**2023**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
01.03.2021.
Registration № 4336

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**E-mail:**
tedqiqat1707@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor**

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
m_ilham63@mail.ru

**Editor**

**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
m_ilham63@mail.ru

**Redaktor köməkçisi**

**Şamxal Şabiyev**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
shebiyev85@mail.ru

**Assistant editor**

**Shamkhal Shabiyev**, Azerbaijan Science Center / Azerbaijan
shebiyev85@mail.ru

**Redaktor köməkçisi**

**Magistrant Aytən MƏCNUNLU**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
aytanmacnunzade@gmail.com

**Assistant editor**

**Master Aytan MAJNUNLU**, Azerbaijan Science Center / Azerbaijan
aytanmacnunzade@gmail.com

**Dillər üzrə redaktorlar**

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan

**Language editors**

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan

**Elmi sahələr üzrə redaktorlar**

**Prof. Dr. Şəhla SƏMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Tərxan CƏBRAYILOV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

## Editors in scientific fields

**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYINOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Afarin ABBASOVA**, Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shafag ABDULLAYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tarkhan JABRAYILOV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Dr. Fuad RZAYEV**, Institute of Zoology of ANAS / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK**, Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nataly MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Elza MOLLAYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne Amerikan Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin QULUSOY**, Qafqaz Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

### Təbiət elmləri

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə

**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fərid NAĞIYEV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna

## Riyaziyyat və mexanika elmləri

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç

## Texnika elmləri

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Mövlud HÜSEYNOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan

# EDITORIAL BOARD

## Humanities and social sciences

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden KAJIBEK**, Kazakh Language Academy / Kazakhstan
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N. Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Cihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilkin GULUSOY**, Kafkas University / Turkey
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey

### Natural sciences

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duyghu KILICH**, Amasya University / Turkey
**Prof. Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGHAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Farid NAGHIYEV,** Baku State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine

### Mathematics and mechanical sciences

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal Institute of Technology / Sweden

### Technical sciences

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Movlud HUSEYNOV,** Azerbaijan State University of Economics / Azerbaijan

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/22/7-10

**Səadət Bayramova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
seadet19710214@gmail.com

# ZAHİD XƏLİL VƏ ÇAĞDAŞ UŞAQ ƏDƏBİYYATI

**Xülasə**

Çağdaş uşaq ədəbiyyatının istedadlı nümayəndələrindən biri Zahid Xəlildir. O, uşaq ədəbiyyatının tarixinə şair, yazıçı və tədqiqatçı olaraq adını yazmışdır. Uğurlu yaradıcılıq yolu keçən sənətkarın yaradıcılığında bu istiqamətlərin hər birisi mövzu zənginliyi ilə maraq doğurur. Geniş ədəbi ictimaiyyət onu bir şair kimi tanıyır. Ədəbiyyata da poetik örnəkləri ilə gəlmişdir. Bir-birinin ardınca çıxan şeir kitabları onun yaradıcı istedadının nümunəsidir. Uşaqlar üçün yazdığı hekayələr də sənət örnəyi kimi mükəmməl təsəvvür formalaşdırır. Rəngarəng mövzularda yazdığı hekayələrlə o, uşaq dünyasını fəth etmişdir. Zahid Xəlil həm də uşaq ədəbiyyatının sistemli tədqiqatçılarından biri kimi tanınır.

***Açar sözlər:*** *çağdaş, uşaq ədəbiyyatı, Z.Xəlil yaradıcılığı, uşaq poeziyası, uşaq nəsri və s.*

**Saadat BAYRAMOVA**
ANAS Institute of Literature named after Nizami Ganjavi
Doctor of philosophy in philology
seadet19710214@gmail.com

# Zahid Khalil and contemporary children's literature

**Abstract**

One of the talented representatives of contemporary children's literature is Zahid Khalil. He wrote his name in the history of children's literature as a poet, writer and researcher. Each of these directions in the work of an artist who has passed a successful creative path arouses interest with the richness of the subject. Wide literary community knows him as a poet. He came to literature with his poetic examples. The books of poems published one after the other are an example of his creative talent. The stories he wrote for children also form a perfect imagination as an example of art. He conquered the children's world with the stories he wrote on colorful subjects. Zahid Khalil is also known as one of the systematic researchers of children's literature.

***Keywords:*** *contemporary, children's literature, works of Z. Khalil, children's poetry, children's prose*

## Giriş

Çağdaş ədəbiyyatın yaddaşına şair, nasir, publisist, alim, tərcüməçi kimi adını yazmış Zahid Xəlil fitri istedadı, zəngin yaradıcılığı ilə həmişə ədəbi-nəzəri fikrin diqqətini özünə cəlb eləmiş və bu gün də etməkdədir. Çünki bütünlükdə taleyini sözə bağlayan və sözün ecazkarlığında günü-günə calayan sənətkar böyük ədəbiyyatın yoluna çıxdığı gündən onunla yol yoldaşı olmuş, könlünü ona vermişdir. İlk şeirindən ("Vətənim") və ilk kitabından ("Uçan çıraqlar"dan) başlayan uğurlu yol bir-birindən maraqlı poetik örnəklərin, cild-cild kitabların, tədqiqatların yaranması və istedadın aydınlığı üçün bir əsas olmuşdur. M.Füzuli XVI əsrdə "sözün əndazəsi o qədər böyükdür ki, müəllimlər sözün məhsulu bildilər Quranı, duanı, vəhyi" deyirdi. Müasirimiz Z.Xəlil də ruhu,

düşüncəsi ilə sözün müqəddəsliyinə köklənmiş, bir-birindən maraqlı, həm də orijinal əsərləri ilə oxucu kütləsinin ürəyini fəth etmişdir.

H.Zərdabinin "balalarımızın başa düşəcəyi əsərlər yaradaq", S.Vurğunun "balalarımız üçün gözəl əsərlər yaradaq" düşüncəsinə köklənən Z.Xəlil yaradıcılığının zənginliyində aparıcı xətti uşaq ədəbiyyatı istiqamətində gördüyü işlər təşkil edir (Vurğun, 1972: 89). Uşaqlar üçün yazdığı əsərlər bütünlükdə uşaq dünyasının mahiyyətini, istək və arzularını, uşaq fantaziyasında olanların nələrlə səciyyələnməsini öyrənməyə və təqdimə hesablanmışdır. "Torağaylar oxuyur", "Salam, Cırtdan", "Mən rəngləri tanıyıram", "Göydən üç alma düşdü", "Quşlar, quşlar", "Balaca", "Çıraq nənənin nağılları" və s. kitabları ilə o, uşaqların sevimlisinə çevrilmişdir.

Z.Xəlil məşhur altmışıncı illər nəslinin nümayəndəsi kimi ədəbiyyata öz töhfələrini vermiş şəxsiyyətlərdəndir. Dövrün yeniləşən ruhuna, milli mənsubluq duyğusuna, orijinal yanaşmalara köklənən mühit bir-birindən maraqlı, çeşidli bədii örnəklərin yaranması ilə səciyyələnir. Ədəbi-nəzəri fikir bu yeniləşməni bir istiqamətdə uşaq ədəbiyyatının əldə etdiyi uğurlar timsalında diqqət önünə gətirir. M.Rzaquluzadə, R.Rza, Ə.Abbasov, Z.Cabbarzadə, Q.İlkin, X.Əlibəyli, T.Elçin, İ.Tapdıq, M.Günər, T.Mahmud, M.Aslan, X.Hasilova, Ə.Babayeva, N.Süleymanov və başqa sənətkarlarla zənginləşən uşaq ədəbiyyatı artıq olanları ilə mükəmməl təsəvvür formalaşdırır.

Azyaşlılar və gənclər üçün yazılmış məzmunlu, dolğun, sağlam ruhlu əsərlər uşaqların mənəvi-estetik zövqünü aşılayır, fantaziya və xəyallarının hüdudlarını genişləndirir, əxlaqi-tərbiyəvi cəhətdən kamilləşməsinə, dünyagörüşünün, həyati idrak qabiliyyətinin inkişafına, vətənpərvər, nikbin, humanist yetişməsinə kömək edir, həyat və mübarizənin həqiqi yolunu onlara öyrədir" (Namazov, 2007: 37). Zahid Xəlilin poeziyası məhz bilgi vermək, uşaq dünyagörüşünü formalaşdırmaq, həyat təsəvvürlərini genişləndirmək gücü ilə səciyyələnir. Onun çeşidli poetik örnəkləri təkcə məzmun uğurluluğu ilə deyil, həm də fikrin çatdırılması formasının özünəməxsusluğu ilə diqqəti cəlb edir.

Zahid Xəlil yaradıcılığı məhz uşaq təsəvvürlərinin zənginliyi, fantaziyasının sonsuzluğu timsalında mükəmməlliklə səciyyələnir. Ədibin şeirlərinin uğurluluğu uşağın iç dünyası ilə ünsiyyət qura bilmə bacarığına bağlanır. F.Əsgərli konkret faktlardan çıxış edərək vurğulayır ki, "Z.Xəlilin uşaq poeziyasında müxtəlif rayihəli rəssam palitrasının və fırçasının qüdrətindən yaradılmış əlvan boyalı təbiət mənzərələrinə kifayət qədər rast gəlmək mümkündür... Sərrast söz seçimindən düzümlənmiş poetik misralar rəngarəng mənzərələr yaradaraq, təbiətin əsrarəngiz gözəlliyini uşaqlara daha çox sevdirir" (Xəlil, Əsgərli, 2011: 13). Bunlar bir istiqamətdə bilgi vermək xarakteri daşıyırsa, digər baxımdan təbiətə sevgi düşüncəsini formalaşdırır.

Uşaq dünyasının özünəməxsusluqlarını sözə gətirmək, onun özəllliklərinin canlı obrazını yaratmaq böyük bacarıq, həm də kifayət qədər ciddi yaradıcı istedad tələb edir. Çünki uşaq şairi təsəvvürü formalaşdırmaq, ədəbi-mədəni mühitdə bu adla uğur qazanmaq özü fitrətə bağlanır.

Azərbaycan uşaq ədəbiyyatının məlum olan klassik örnəkləri var və onlar yüz illərdir ki, bütünlükdə uşaq yaddaşının klassik nümunəsi olaraq ölməzlik qazanmışdır. Çağdaş uşaq ədəbiyyatı həmin ənənəyə köklənməklə böyük bir uşaq yazarlar nəsli formalaşdırmışdır. Z.Xəlil artıq uzun illərin təcrübəsi sayəsində çoxçeşidli və çoxşaxəli yaradıcılığı ilə bu sırada uzun ömür yolu keçmişdir. Onun altı cildlik "Seçilmiş əsərləri" (2008) bu yolun möhtəşəmliyinin göstəricisidir. Bu nümunələrdə şair, nasir, publisist, alim Z.Xəlilin qəlb döyüntüləri, hansı duyğularla yaşaması, nə ilə nəfəs alması bütün təfsilatı ilə boy göstərir. Hər bir poetik örnəyi uşaq dünyasının bir sirli-sehrli səhifəsinə işıq salır. Maraqlı yozumu, orijinal mənalandırması ilə uşaqların təsəvvürlərini canlandırmaqla yanaşı, həm də onlar haqqında bilgi vermək məqsədi daşıyır. Məsələn, bir parçada alça haqqında deyib-gülən, şən uşaqların öz dili, öz yozumu ilə maraq doğuracaq informasiya təqdim edilir. "Yaxma", "Leylək", "Qurbağa", "Qazayağı", "Gilas", "Dovşan və köpək", "İydə", "Keçi və Əziz", "Dilarənin danası", "Külək və Mələk" və s. (Zahid Xəlil, 2008: 78) kimi poetik şeir nümunələri yığcamlığı, lakonik və sadəliyi, aydınlığı ilə qəlblərə yol tapır. Z.Xəlil bu şeirləri ilə sirli-sehrli, ecazkarlıqlarla dolu uşaq qəlbinə yol tapmış, bir növ onlarla yol yoldaşı olmuşdur. Düşünürsən ki, bu istedadlı sənətkar onlarla eyni yaşdadı və onlarla yol yoldaşı, uşaqlıq sirdaşı kimi

davranır, eyni zamanda bu söyləmələrdə, əyləncə və deyib-gülmələrdə təsəvvürlərini, olanları, söhbətləri kağıza köçürür.

Z.Xəlil uşaq ədəbiyyatının istedadlı nümayəndəsi olmaqla yanaşı, həm də yazdıqları ilə uşaq qəlbinin memarıdı, onların rübabını dilləndirə bilən çox az-az sənətkarlardandır. Ədəbiyyatımızın tarixinə uşaq şairi kimi adını yazmış bu sənətkarın yaradıcılığında uşaq bədii nəsrinin çeşidli poetik nümunələri də kifayət qədərdir. “”Kağız adamlar”, “Abdulla baba”, “Qulamın qəribə qarnı”, “Tüklücə”, “Siçanların padşahı pişik”, “Bağırmaq istəyən adam”, “Qarışqaların evi”, “Beçə”, “Arıların düşməni”, “Ağca və Axça”, “Turalın atı”, “Quyruq”, “İnci”, “Günəşi qoparmaq istəyən ayılar”, “Qayıq sürən ayı balası”, “Güzgü”, “Üzgüçü Tural”, “İki nar” və s. (Zahid Xəlil, 2008: 93) kimi bədii nəsr nümunələrinin hər birisi uşaqların təsəvvürlərinə, düşüncəsinə hesablanmış və onları öz dillərində, öz təsəvvürlərində olan səviyyədə təqdim edə bilmək gücü ilə səciyyələnir (Məmmədov, Babayev, Cavadov, 1992: 90).

Mövzu rəngarəngliyi ilə seçilən hekayələr hər birisi mətn strukturu, təsvir və çatdırılma üsulları, təlqin özünəməxsusluqları ilə sənətkarın yaradıcı imkanlarını müəyyənləşdirir. Bunların isə uğurluluğu təkcə yaradıcı istedadına bağlanmır (əlbəttə bu, mühüm şərtdir), burada sənətkarın uşaq dünyasına bələdliyi, onların dili ilə danışa, düşüncəsi ilə düşünə bilmə bacarığı, hansı duyğularla şənlənmələri və s. kimi məsələlərə həssaslıq, bir növ onun içərisindən hər hekayə, əhvalatla keçə bilmə bacarığı lazımdır. Bu rəngarəng və çeşidli nümunələrlə ədib təkcə onların iç dünyasını ifadə ilə kifayətlənmir, həm də onlara uğurlu təqdim formalarında bilgi vermək kimi məqsədə yüklənir. “Əkinçi qarışqalar”, “Qarışqa dostluğu”, “Beçə”, “Arının düşməni” və s. nümunələr diqqətçəkicidir. “Arının düşməni” hekəyəsi bu baxımdan tipik bir yaradıcılıq örnəyidir. Orada vurğulanır ki, “bizim arının birinci düşməni qızlar quşudur. O, sığırçın boyda balaca bir quşdur. Belinin və qanadlarının tükləri yaşıl rəngdədir. Payızda isti ölkələrə gedib yazda qayıdır. Qızlar quşu dəstə ilə arının suya gedən yolunu gözləyir və tutub yeyir. Bir quş gündə yüzə qədər arı tələf edir. Buna görə gərək səbətləri meşənin içində bağların arasında qoyasan ki, işə gedən arılar gizlənə bilsinlər” (Zahid Xəlil, 2008: 406). Burada yazıçının çatdırmaq istədiyi qayə bal arısı və onların işgüzar həyatı ilə yanaşı, həm də qızlar quşu haqqında verilən maraqlı bilgidir. Uşaqlar bu nümunələri təkcə hekayə, nağıl kimi mənimsəmir, həm də onlardan mükəmməl bilgi öyrənir. Bütün bunlar sonsuz uşaq maraqları timsalında bir yaddaş, təsəvvür hadisəsi olaraq faktlaşır.

Z.Xəlil (Zahid Abdulla oğlu Xəlilov) Azərbaycan ədəbi-mədəni mühitində təkcə şair, nasir kimi maraq doğurmur, həm də uşaq ədəbiyyatının istedadlı tədqiqatçısı olaraq bir-birindən maraqlı araşdırmaları ilə tanınmış alimdir (Məmmədov, Babayev, Cavadov, 1998: 78). Onun bütünlükdə ədəbi irsi bədii və elmi olmaqla iki istiqamətə köklənmişdir. “Azərbaycan uşaq poeziyası və folklor” mövzusunda yazdığı (1974) namizədlik dissertasiyası (indiki fəlsəfə doktorluğu) ədəbiyyatımızın köklü bir probleminin araşdırılmasına hesablanmışdır. Burada Z.Xəlilin şairlik və alimlik fəaliyyətinin ümumi təfərrüatlarından doğan qənaətlər özünə yer alır. Məlum olduğu kimi, Azərbaycan uşaq ədəbiyyatının yazılı mühitdə formalaşma baxımından elə bir uzun zamanı əhatə etmədiyini nəzərə alsaq, ancaq zənginlik baxımından ciddi mükəmməlliklə müəyyənləşir. Bu zənginliyin genetikasını, formalaşdırdığı təsəvvürün mahiyyətini aydınlaşdırmaq özü bütün tərəfləri ilə ədəbi-nəzəri fikrin qarşısında durmuşdur. Uşaq poeziyası baxımından aparılan təhlillər bütünlükdə tarixi-mədəni prosesin gedişi haqqında dolğun təsəvvür formalaşdırır. Tipoloji təhlillər yararlanmanın üsul və yollarını, müəllif özünəməxsusluqlarını aydınlaşdırmaq kimi bir düşüncəyə bağlanır (Məmmədova, 2014: 67).

Uşaq ədəbiyyatının problemlərinə dərindən bələd olan və ayrı-ayrı məqalə və kitablarında onu təhlilə gətirən ədib bədii yaradıcılığı ilə yanaşı, araşdırmalarını da həmişə sistemli aparmışdır. “Azərbaycan uşaq ədəbiyyatının mənşəyi, təşəkkülünün əsas amilləri və inkişaf problemləri” mövzusunda yazdığı (1990) doktorluq dissertasiyası bunun nümunəsidir. Kifayət qədər ağır, həm də köklü problemə həsr olunmuş bu tədqiqat bir istiqamətdə namizədlik dissertasiyasının davamı olmaqdan əlavə, həm də orada həllini tapmamış məsələlərin araşdırılması baxımından ciddi əhəmiyyət daşıyır.

Bütün bunlarla yanaşı, Z.Xəlilin zəngin fəaliyyətində diqqət önünə gətirilməli bir tərəf də var, bu onun müəllimlik fəaliyyəti ilə bağlıdır. O, uzun illər Azərbaycan Dövlət Pedaqoji Universitetində Uşaq ədəbiyyatından mühazirələr oxumuş, magist və bakalavr pilləsində dərslər aparmışdır. Rəhbərliyi altında proqramlar, dərs vəsaitləri, metodik vəsaitlər hazırlanmışdır. "Uşaq ədəbiyyatı" dərsliyi (F.Əsgərli ilə birgə) bunun göstəricisidir (Xəlil Z., Əsgərli F., s.76). Bütün bunlar şair, nasir, publisist, alim Zahid Xəlilin zəngin yaradıcılıq yolunun möhtəşəmlik göstəricisidir.

## Ədəbiyyat

1. Vurğun. S. (1972). Əsərləri. 6 cilddə, VI c., Bakı: Elm, 461 s.
2. Namazov. Q. (2007). Azərbaycan uşaq ədəbiyyatı. Bakı: BDU, 444 s.
3. Xəlil. Z., Əsgərli. F. (2011). Uşaq ədəbiyyatı. Bakı: ADPU, 498 s.
4. Xəlil. Z. (2008).Seçilmiş əsərləri. 6 cilddə, I c. Bakı: ADPU, 388 s.
5. Xəlil. Z. (2008). Seçilmiş əsərləri. 6 cilddə, II c. Bakı: ADPU, 412 s.
6. Məmmədov. M., Babayev. Y., Cavadov. T. (1992). Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı: Maarif, 288 s.
7. Məmmədov. M., Babayev. Y., Cavadov. T. (1998). İki əsrin maarif işığında. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. Bakı: Elm, 300 s.
8. Məmmədova. Ş. (2014). Uşaq ədəbiyyatı (M.Dilbazinin uşaq yaradıcılığı. Bakı: ADPU, 187 s.

Göndərilib: 07.03.2023 Qəbul edilib: 29.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/22/11-14

**Şəhanə Əsgərova**
Azərbaycan Dillər Universiteti
doktorant
shahanaasgarova@gmail.com
ORCİD İD 0000 – 0003 – 0890 – 0065

# METAFORANIN MƏCAZLAR SİSTEMİNDƏ YERİ

**Xülasə**

Sözün çoxmənalılığı imkan verir ki, hər hansı leksik vahid öz ilkin mənasından başqa yeni mənalar da ifadə etsin. Sözün müstəqim mənasından uzaqlaşaraq yaratdığı yeni məna "məcazi" məna adlanır. Məcazi məna dil faktı olmaqla yanaşı, bədii əsərlərdə obrazlılıq, ekspressivlik, ifadəlilik verir. Məcazın bir neçə növü vardır. Onlardan ən məhsuldarı metaforadır. Həm yaranma yollarının müxtəlifliyinə, həm də ifadə imkanlarının zənginliyinə görə metafora məcazlar sistemində özünəməxsus yer tutmuşdur. Metafora əşya və hadisələr arasında müəyyən oxşarlıq, bənzəyiş əsasında yaranır. Belə ki, sözlər əşya və hadisələr arasındakı müəyyən oxşarlığa (forma oxşarlığı, rəng oxşarlığı, keyfiyyət oxşarlığı, hərəkət oxşarlığı və s.) görə başqa əşyalar üzərinə köçürülür. Leksik metaforalar dilin lüğət tərkibində sabitləşməklə, lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. Üslubi metaforalar isə yazıçının təxəyyülünün məhsulu olmaqla bədii əsərə rəngarənglik bəxş edir.

Metaforanın digər məcazlar arasındakı yerini müəyyən etmək üçün, onu məcazın digər növləri - təşbeh, metonimiya və sinekdoxa ilə müqayisə etmək lazımdır.

***Açar sözlər:*** *metafora, məcaz, metonimiya, təşbeh, sinekdoxa*

**Shahana Askerova**
Azerbaijan University of Languages
Ph.D student
shahanaasgarova@gmail.com
ORCİD İD 0000 – 0003 – 0890 – 0065

## The place of metaphor in the system of tropes

**Abstract**

Polysemy of the words allows any lexical unit to express new meanings besides its original meaning. The new meaning created by moving away from the literal meaning of the word is called figurative meaning. Figurative meaning, besides being a fact of language, gives figurativeness, expressiveness to artistic works. There are several types of trope. The most productive of them is metaphor. Due to the diversity of the ways of creation and the richness of synonyms, metaphor has a special place in the system of tropes. Metaphor is created on the basis of certain similarities based on feelings and events. So that words are transferred to other objects due to a certain similarity (shape similarity, color similarity, qualitative similarity, movement similarity etc.) between things and events. Lexical metaphors are fixed in the vocabulary of the language, play an important role in enriching vocabulary. Stylistic metaphors, being the product of the writer's imagination, give color to the artistic work.

In order to determine the place of metaphor among other tropes, it is necessary to compare it with other types of tropes, comparison, metonymy, synecdoche.

***Keywords:*** *metaphor, trope, metonymy, comparison, synecdoche*

## Giriş

Dildə anlayışlar çox, onları adlandıran sözlər isə azdır. Sözlərin polisemiyası (çoxmənalılığı) imkan verir ki, bir söz bir neçə məhfumu adlandıra bilsin. Beləliklə sözlər öz ilkin, müstəqim mənalarından uzaqlaşaraq məcazi məna kəsb edirlər. Məcazi məna əşya, obyekt və hadisələr arasında müəyyən oxşarlıq, bənzəyiş və müxtəlif əlaqələr əsasında yaranır. Məcazlar bədii dilin obrazlı təsvir və ifadə vasitələri olmaqla dilçilik sahəsi kimi 40-cı illərdən öyrənilməyə başlanılmışdır. 40-cı illərə qədər isə dilin məcazlar sistemi ədəbiyyatşünaslıq aspekti sayılmış və onun nəzəri məsələləri, təhlili ədəbiyyat nəzəriyyəsi baxımından aparılmışdır. Məcazlar sisteminin dilçilik sahəsi kimi öyrənilməsində rus dilçisi V.V.Vinoqrodovun böyük xidmətləri olmuşdur. Məcazi məna dil faktı olmaqla yanaşı, bədii əsərlərdə bədii-üslubi mahiyyət daşıyır. Azərbaycan, ingilis, fransız dillərində məna köçürməsi, üslubi fiqurlar, məcazlar haqqında dilçilərin müxtəlif fikirləri vardır. Məna dəyişməsi dilin lüğət tərkibini zənginləşdirən mənbələrdən biridir (Moren, Teterevnikova, 1970: 172). Məcaz sözün dolayı yolla ifadə etdiyi mənadır. Fransız dilçilik ədəbiyyatında məcazlar üslubi fiqurlar adlandırılır. Fransız dilçiliyində məcazlara eyni zamanda troplar da deyilir. Rəsmi üslub istisna olmaqla, müasir fransız dilinin bütün üslublarında troplara müraciət olunur (Djabbarov, 2015: 97). Müxtəlif dillərdə məcazların bölgüsü və təsnifatı fərqli aparılmışdır. Məcazlar və onun təsnifatı məsələsi hələ qədim dövrdən dilçilərin diqqətini cəlb etmişdir. Rus dilçisi Lyasota məcazları metafora, metonimiya, sinekdoxa və evfemizmlər kimi qruplaşdırmışdır. L.V.Şepilova məcazları metafora, alleqoriya, metonimiya, sinekdoxa, mübaliğə, litota, ironiya və epitet olaraq qruplaşdırmışdır. M.K.Moren, N.N.Teterevnikova "Fransız dilinin üslubiyyatı kitabında" sözün həqiqi mənasından başqa yeni məna kəsb etməsini məcaz və ya fiqur adlandırmışlar.

Metaforanın məcazlar sistemində özünəməxsus yeri vardır. Metafora yunan sözü olub köçürmə deməkdir. Məcazın ən qədim növü olan metafora hələ antik dövr filosofları, Aristotel, Kvintilian, Siseron və başqalarının diqqətini cəlb etmişdir. Metaforadan bəhs edərkən Kvintilian onu "məcazın ən gözəli" adlandırmışdır. "English Stylistics" kitabının müəllifi Ü.D.Hacıyeva metaforanın geniş imkanlarından bəhs edən metaforanın bəzən köməkçi nitq hissələri ilə ifadə olunduğunu qeyd edir (Hajıyeva, 2014: 50). Metafora müqayisə əsasında yaranır. Əşya və hadisələr arasında mövcud olan oxşarlıq, bənzəyiş əsasında bir söz bir neçə anlayışı adlandıra bilir. Metaforanın iki növü vardır. 1.Leksik metafora 2. Üslubi metafora. Leksik metaforalar ümumişlək metaforalardır. Bunlar danışıq dilində daha çox istifadə olunur. Bu cür metaforalara obrazlılığını itirmiş olsalar da bədii əsərlərdə rast gəlmək mümkündür. İnsan təfəkkürünün məhsulu olan üslubi metaforalar isə bədii əsərlərin ifadə gücünü artıran obrazlı ifadələrdir.

Məcazlar sistemində metaforanın yerini müəyyənləşdirmək üçün onun məcazın digər növləri olan təşbeh – bənzətmə, metonimiya, sinekdoxa ilə fərqli və oxşar xüsusiyyətləri fransızdilli yazıçı Erik – Emmanuel Şmitdin əsərlərindən götürülmüş nümunələr əsasında göstərilmişdir. Həm Azərbaycan, həm fransız dilçiləri ilk növbədə metafora ilə təşbehin fərqlərini araşdırmağı vacib bilmişdilər. Çünki hər iki məcaz bir-birinə çox yaxındır.

Təşbeh, yaxud bənzətmə məcazın növlərindən biridir. Təşbeh də metafora kimi müqayisə əsasında yaranır.

İstər klassik, istərsə də müasir fransız ədəbiyyatında heyvan və quş adları, səma cisimləri, coğrafi adlar, tarixi və əfsanəvi şəxs adları, vaxt bildirən sözlərlə mükəmməl təşbeh nümunələri, eləcə də metaforalar yaradılmışdır. Təşbehin düzəlməsində bənzəyən tərəf, bənzədilən tərəf və bənzətmə qoşması *comme, tel, telle* iştirak edir. Metaforada isə bənzətmə qoşması işlədilmir.

*Elle me fixa, tel un serpent qui s'apprête à mordre sa proie. O, mənə ovunu dişləməyə hazırlaşan ilan kimi baxırdı*. Burada tel – « kimi »bənzətmə qoşmasından istifadə edilərək bənzətmə yaradılmışdır.

- *Tais - toi, serpent !* (Schmitt, 2021: 296). *Sən sus, ilan*. Bu nümunə isə metaforadır. Müraciət olunan şəxsi mənfi xüsusiyyətlərinə görə ilana bənzədilmişdir.

*Ses doigts tordus et jaunes comme les pattes d'un poulet roulèrent du chanvre, mais il interrompit son geste, soudain désarçonné* (Schmitt, 2021: 107). *Ses doigts tordus et jaunes comme*

*les pattes d'un poulet – onun toyuq ayağı kimi büzüşmüş və sarı barmaqları, comme "kimi"bənzətmə qoşmasından istifadə edilərək, onun barmaqları toyuğun ayağına bənzədilmişdir.*

*Un vol de grives,épais comme un nuage, changea de versant* (Schmit, 2021: 22). *Bulud kimi sıx qaratoyuq sürüsü istiqaməti dəyişdi.*

*La forêt s'assoupisssait autre de nous, telle une ruche morte. Meşə ətrafımızda ölü pətək kimi yuxulayırdı.*

*Sous le coup, l'arbre craqua, tel un homme qui crie…*(Schmitt, 2021: 176). *Zərbənin təsiri altında, ağac qışqıran insan kimi çatladı. Ağacın çatlama səsini insan qışqırığına bənzətməklə və tel – kimi qoşmasından istifadə etməklə təsirli təşbeh nümunəsi yaradılmışdır.*

İnsana aid xüsusiyyətləri cansız əşyalar və ya mücərrəd varlıqlar üzərinə köçürməklə yaranan metaforalar üstünlük təşkil edir. Bu cür metaforalar *təcəssüm, şəxsləndirmə* adlanır. Şəxsləndirmə metaforanın bir növü olduğu üçün onları müqayisə etməyə ehtiyac yoxdur. Qeyd edək ki, bütün şəxsləndirmələr metaforadır, lakin bütün metaforalar şəxsləndirmə deyildir.

*La chance me sourit* (Schmitt, 2021: 151). *Şans mənə gülümsəyir. Sourire – gülümsəmək feili insana xas olan bir hərəkətdir, bunu cansız varlıq üzərinə köçürməklə onun canlı təsvirini yaradılmışdır.*

*Metafora da bənzətmə, oxşarlıq əsasında yaranır, lakin bənzətmə qoşması yoxdur.*

*Je ne suis qu'un mort – vivant* (Scmitt, 2021: 106). *Mən yalnız yaşayan ölüyəm. Bu nümunədə yazıçı antonim sözlərdən (yaşayan – ölü) istifadə edərək, təzad ifadə edən metafora nümunəsi yaratmışdır.* Daha dəqiq desək, antonim sözlərin (yaşayan – ölü) qarşılaşdırılması ilə düzələn məcaz – oksimoron adlanır.

*Puisque je quittais ce paradis naturel, je fêterais l'adieu par une action spéciale:les yeux de biche* (Schmitt, 2021: 68). *Puisque je quittais ce paradis naturel – mən bu təbii cənnəti tərk edəndən bəri... Yazıçı məkanı cənnətə bənzətməklə daha təsirli metafora yaratmışdır.*

Qayğı, əzizləmə, nəvaziş mənalarında işlənən metaforalar.

*A demain, mon amour* (Schmitt, 2021: 27). *Sabaha qədər, sevgilim.*

- *Malatantra, ma toute belle*! (Schmitt, 2021: 270). *Malatantra, mənim gözəlim.*

Metaforanın metonimiyadan fərqi.

Metonimiya yunan sözü olub, bir sözün başqa sözlə əvəz olunmasıdır. Bir sözün başqa sözlə əvəz olunması metaforada olduğu kimi, bənzərlik əsasında deyil, fərqli əşya və hadisələrin qarşılaşdırılmasından əmələ gələn daxili və xarici əlaqələr əsasında mümkün olur. Metonimiya qarşılaşdırılmış əşya və hadisələr arasındakı müxtəlif əlaqələrin varlığından yaranır. Metonimiya metafora kimi iki cür olur 1. Sabit, ümumişlək metonimiyalar 2. Obrazlı metonimiyalar.

Bədii ədəbiyyatda metonimiyaların hər iki növündən də istifadə olunur. Metonimiyaların əmələgəlmə yolları da fərqlidir.

Metaforada obrazlılıq, ekspressivlik metonimiyaya nisbətən daha güclüdur. Metonimiya daha çox yığcam ifadə olunur. Azərbaycan dilində metonimiya yalnız isimlərlə ifadə olunduğu halda, fransız dilində isə metafora kimi metonimiya da müxtəlif nitq hissələri ilə ifadə oluna bilir. Metaforada yeni anlayış, hər hansı məhfumu adlandırma mövcuddur. Metonimiyanın belə bir funksiyası yoxdur.

Metafora da, metonimiya da insan təfəkkürünün məhsuludur. Əşya və hadisələr arasında müəyyən əlaqələrin mövcudluğu müəyyən edilərək uyğun metaforik və metonimik ifadələr yaradılır. Məcazın hər iki növündən bədii ədəbiyyatda geniş istifadə olunur.

*Noam proteste, se justifie de sa bonne foi, le convainc d'aller boire une verre* (Schmitt, 2021: 11).*boire une verre – bir stəkan içmək, yəni stəkanın içindəkini içmək, bir stəkan su, bir stəkan çay, bir stəkan süd.*

Məkan adları ilə düzələn metonimiyalar üstünlük təşkil edir.

*Tout le village te le confirmera* (Schmitt, 2021: 101). *bütün kənd sənə onu təstiq edəcək. Tout le village – bütün kənd yəni kənddəkilər, kənd sakinləri.*

*Le marché, en particulier, l'a sérieusement intéressé* (Schmitt, 2021: 60). *Xüsusilə bazar onu ciddi şəkildə maraqlandırırdı. Bazar dedikdə bazardakılar, satılan əşyalar və yaxud da qarşılaşdığı insanlar nəzərdə tutulur.*

Məkan adları ilə düzələn metaforalar da mövcuddur. Lakin burada həmin məkanda yaşayan insanlar nəzərdə tutulmur.

Məcazın növlərindən biri də sinekdoxadır. Sinekdoxa daha çox metonimiyaya yaxındır və ən çox metonimiya ilə qarışıq salınır. Bəzən danışarkən bütövün bir hissəsini və yaxud əksinə ayrı-ayrı hissənin ifadə etdiyi mənanı bütövlə işlədirlər. Bu, sinekdoxa adlanır.

*Un froufrou d'ailles me répondit* (Schmitt, 2021: 484). *Quşların səsi mənə cavab verdi.* Ailles – qanadlar, quşun qanadları lakin burada bütövlükdə oiseaux, yəni quşlar mənasında işlənilmişdir. Burada tamın bir hissəsi, bütövlükdə tamı ifadə etdiyindən sinekdoxadır. Göründüyü kimi, sinekdoxa metafora kimi bənzətmə əsasında deyil, yəni burada quşun qanadı quşa bənzədilərək deyil, tamın hissəsinin, bütövlükdə tamı ifadə etməsi ilə yaranmışdır.

## Nəticə

Məcazın ən məhsuldar növü olan metafora, yaranma yollarına, ifadə imkanlarına, üslubi funksiyalarına, dilin lüğət tərkibini zənginləşdirməsinə görə məcazlar sistemində əsas yeri tutur. Eric – Emmanuel Şmitdin əsərlərindən götürülmüş nümunələr əsasında metafora ilə təşbeh, metonimiya və sinekdoxanın fərqli və oxşar xüsusiyyətlərini müəyyənləşdirdik. Nümunələr gətirdiyimiz əsərlərdə digər məcaz növlərinə nisbətən metaforaya daha çox rast gəlinir.

## Ədəbiyyat

1. Moren. M.K., Teterevnikova. N.N. (1970). "Stylistique Française" Moskva.
2. Djabbarov. R. (2015). "La stylistique Française " Bakou. p.97.
3. Hajıyeva. U.D. (2014). "English stylistics", Bakı, p.50.
4. Schmitt. E.E. (2021). "La Porte du ciel" Albin Michel.
5. Schmitt. E.E. (2021). " Paradis perdus Albin Michel.

Göndərilib: 16.04.2023 Qəbul edilib: 25.06.2023

DOI: https://doi.org/10.36719/2789-6919/22/15-18

**Ayshen Zeynalzadeh**
Baku Engineers University
master student
azeynalzade@std.beu.edu.az

# APPLICATION PROBLEMS OF IFRS IN PRODUCTION ENTERPRISES

## Abstract

The reforms carried out in the economy of the Republic of Azerbaijan impose some new tasks on commercial enterprises that are suitable for market relations. The performance of such tasks is impossible without adequate information about the enterprise's activities. Such information appears in the accounting and reporting system. Data is used to make informed economic decisions. The decisions made must be relevant to the requirements of the business that changes from time to time, otherwise it becomes impossible to be stable and operate stably in the face of serious market competition. The quality and authenticity of economic decisions made at the level of institutional units depends on how information is formed from a theoretical, methodological and practical point of view in any appropriate accounting and reporting system.

***Keywords:*** *accounting, production problems, competition, business, commerce*

**Ayşən Zeynalzadə**
Bakı Mühəndislər Universiteti
magistrant
azeynalzade@std.beu.edu.az

## MHBS-in istehsal müəssisələrində tətbiq problemləri

## Xülasə

Azərbaycan Respublikasının iqtisadiyyatında aparılan islahatlar bazar münasibətlərinə uyğun olan kommersiya müəssisələrinin üzərinə bir sıra yeni vəzifələr qoyur. Müəssisənin fəaliyyəti haqqında adekvat məlumat olmadan belə vəzifələrin yerinə yetirilməsi mümkün deyil. Bu cür məlumatlar mühasibat uçotu və hesabat sistemində görünür. Məlumat əsaslandırılmış iqtisadi qərarlar qəbul etmək üçün istifadə olunur. Qəbul edilən qərarlar biznesin zaman-zaman dəyişən tələblərinə uyğun olmalıdır, əks halda ciddi bazar rəqabəti şəraitində sabitlik və stabil fəaliyyət göstərmək qeyri-mümkün olur. İnstitusional bölmələr səviyyəsində qəbul edilən iqtisadi qərarların keyfiyyəti və həqiqiliyi istənilən müvafiq uçot və hesabat sistemində nəzəri, metodoloji və praktiki baxımdan məlumatın necə formalaşmasından asılıdır.

***Açar sözlər:*** *mühasibat, istehsal problemləri, rəqabət, biznes, kommersiya*

## Introduction

It is known that since the market economy is arbitrarily more intense and uncertain, it becomes imperative to systematically review the methodology, methods and methods of gathering information about the happening events, situations, facts and modern objects. Over time, the economy of the Republic of Azerbaijan is integrated into the world economy, the trade and economic cooperation of state enterprises and companies with companies of other countries is expanding and deepening. The relevant world economic organizations develop uniform accounting and reporting standards. The main purpose of this is to ensure unification and harmonization of accounting and reporting worldwide. That is, the state's accounting and reporting system is slowly being transformed into an interstate accounting and reporting system, and the transition to interstate standards in the financial reporting sector is important. External users first use financial statement information when making financial decisions (1).

İFRS- International Financial Reporting Standards (IFRS) are a set of accounting rules for the financial statements of public companies that are intended to make them consistent, transparent, and easily comparable around the world .

IFRS specify in detail how companies must maintain their records and report their expenses and income. They were established to create a common accounting language that could be understood globally by investors, auditors, government regulators, and other interested parties.

The foundation of the International Financial Reporting Standards Board is to make it easier for international investors to invest in the capital markets of countries. Because the International Financial Reporting Standards Council is creating a global accounting system and ensuring clarity, comparability and reliability of financial tables (Abdullayeva, 2019: 35). In a general sense, accounting standards are norms that guide accounting applications and regulate the preparation of financial tables.

The International Financial Reporting Standards Board is a set of standards that aim to enable the comparison of financial statements prepared by harmonizing accounting standards worldwide. The European Union has achieved its harmonization goals through accounting directives, in particular by implementing the fourth and seventh directives. These guidelines have been incorporated into the laws of the member countries. As a result of different financial reporting environments within the EU and the directive nature of the guidelines, member countries' financial reporting standards and practices have varied greatly. In countries with a strong capital structure, financial reporting has developed as very important and transparent 12, while in countries with a weak financial organization, transparency and development have become less important.

**Instutitional problems**

Quality of economic decisions made at the scale of institutional units, real theoretical-methodological and information in any appropriate accounting and reporting system from a practical point of view, it depends on how it is formed. Classification and analysis of financial statement components in the report a number of issues have not been fully resolved in the new standards.

In connection with the implementation of financial problems IFRS, the accounting systems of economic entities should be restored, management personnel should be reorganized, professionals should be hired, modern software should be acquired, and a large amount of funds should be allocated to replace management processes with new ones (Jafarov, 2015: 17). It is not an exception to provide audit services according to the International Auditing Norms or the National Auditing Norms drawn up and approved in accordance with the financial statements prepared by the organization in accordance with the conditions of IFRS. In addition, the implementation of reforms in the direction of state accounting and the importance of directing large-scale investments can also be emphasized as a problem (Druky, 2014: 18) .

In the conducted studies, it was determined that, especially in large enterprises, the number of employees in the departments preparing IFRS financial statements is usually 3-4 or 1 person. These experts are usually experts who do not have a high level of IFRS knowledge of these standards. This has a negative impact on the quality characteristics presented in the new financial statements prepared accordingly (Jafarov, 2017: 18).

Indukaev.V.P noted in his researches the same opinion, that is, due to the lack of solid knowledge and skills of professional experts about these standards, which arise in staffing problems for the implementation of IFRS (Indukayev, 2016: 274). In my opinion, since tax accounting and financial accounting are separated in connection with the application of International Standards, it would be appropriate for accountants to organize their work based on the mentioned functions (Jafarov, 2016: 21).

Taking into account that the economic relations system of Azerbaijan was formed on the basis of the former Soviet economic relations system, the necessity of the concept of reconstruction of the traditional national accounting system in accordance with the international standards of financial

statements in our republic was characterized by the following similar reasons and features as in the CIS countries:

1. The transitional period of the economy in our republic In connection with the entry into force of the Law of the Republic of Azerbaijan "On Accounting", which reflects the formation and development of new property relations and objects, a number of conceptual concepts given in the international standards of accounting in connection with the entry into force of the Law of the Republic of Azerbaijan on September 2, 2004 The financial reports compiled by the organizations were not accepted by international organizations as they were not reflected in the relevant accounting rules regulated by the Law of the Republic of Kazakhstan and the normative-legal acts adopted on its basis.

2. Since the traditional (national) accounting and reporting system was based on administrative methods, the selection and presentation of information in the financial reports prepared by organizations was not considered neutral, as it affected the achievement of a predetermined result.

3. Since the real value of assets in the traditional (national) accounting and reporting system is recorded only at the initial and 25 replacement cost in the results of the financial status and activity of organizations, the fixed assets that are subject to physical and moral wear and therefore are considered unsuitable for obtaining economic benefits in the future are those it created a false impression of the existence of the production potential of the organization and as a result of this, it created conditions for making incorrect decisions by the users of those reports regarding the analysis of the efficiency of the production potential of the organization.

4. In the traditional accounting rules, the registration and accounting of economic transactions, which were not justified by legislation and took place according to the legal form, and not according to the economic essence and reality, did not ensure that these transactions were properly related to the relevant accounting periods.

5. In contrast to the international standards of financial statements, in the financial statements compiled according to the traditional accounting rules in force in the above reporting periods, changes in capital during the adoption of the correct economic decision about the activity and financial results of the organization by users, events after the balance sheet date, Estimated liabilities, contingent disclosure of liabilities and contingent assets, fair value and other information considered necessary was not provided.

6. In the event that the value of assets is assessed at initial and replacement cost according to traditional (national) accounting rules, during the assessment of assets and liabilities in accordance with the relevant provisions of the International Standards of Financial Reporting (historical value, current value, probable sale price, discount rate and fair value) different evaluation methods are used. Also, the method of reflecting the elements of financial statements in accounting, adopted on the basis of international standards, is based on completely different criteria and principles from a conceptual point of view than the methodology of recognition and recording of said elements determined by traditional (national) accounting rules (Karpova, 2016: 189).

7. In order to disclose to the users the essence of the information presented in financial reports in accordance with international standards, the fact that the specialists who prepare these reports have fundamental knowledge of the International Standards of Financial Reporting will create ample opportunities for the development and spread of the accounting profession, as well as for increasing its reputation. It is primarily a matter of teaching staff who have theoretical and practical knowledge and skills about international standards of accounting and financial reporting within the framework of targeted programs that are required to be implemented for specific periods of time, which ensure the adoption of a new way of thinking and philosophy on the formation and development of accounting in the context of the globalization of the economy. it is about the training of trainers, as well as the preparation and distribution of relevant teaching-methodical materials.

## Conclusion

Today, the necessary measures are being taken in the relevant fields, even if they are new. MN and TN in order to eliminate these defects in financial accounting carried out joint consultations.

Professional teaching teams of higher and other educational institutions, the last and modern methodological base and teaching for first-year students preparation of materials.

This qualification knows how to apply IFRS for the implementation of trainings studied or taught in foreign universities an intern group of teachers can be formed.

On the efficiency and purpose of state funds, as well as budget funds State control, which is important in spending - state management capitals serving the country's interests, being one of its main and mandatory components shows and is conducted in different directions on behalf of the state. Also subsidias in enterprises area and tax courtesy.

Within this priority, the institutional foundations of business conditions by AR strengthening is planned. Basically, the mechanism of free competition to improve, by relatively weakening the role of man in state-business relations increasing efficiency, transparency and accountability as the main trend has been done. Due to the increase in the flow of foreign capital attracted to Azerbaijan strengthening the position of foreign investors in the domestic market of the country objectively uniform accounting rules and financial statements fertile conditions for their unification, as a result, their standardization created. For this reason, the international standards of financial reporting efficient and appropriate use of budget funds in non-applying countries, as well as comparison of financial information about the activities of national entrepreneurs attracting foreign investments, taking into account the existence of the problem international for entrepreneurs who want to enter the country and the world market implementation of accounting according to standards is of particular importance earns. Financial reporting in general – making economic decisions to accompany the property and financial situation of the enterprise, the results of its activities on accounting information to make and evaluate forming necessary information to users in the selected form and order should be considered as a method of rendering.

## References

1. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları. (Maliyyə Nazirliyi; http://www.maliyye.gov.az/node/2147).
2. Abdullayeva. İ. (2019). “Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində aparılan islahatların əsas istiqamətləri” mövzusunda. Bakı, 219 s.
3. Cəfərov. E.O. (2015). “Pul vəsaitlərinin hərəkəti haqqında hesabat üzrə” Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartının tətbiqi ilə bağlı bəzi nəzəri aspektlər: Mühasibat uçotu, audit və iqtisadi təhlil. № 9, 44-58 səh.
4. Druky. K. (2014). Introduction to management and production accounting M: Audit Publishing House. p.18.
5. Cəfərov. E. O. (2017). “"Ehtiyatlar üzrə" Kommersiya Təşkilatları üçün 8 №-li Milli Mühasibat Uçotu Standartına uyğun olaraq maliyyə əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsinə dair bəzi məsələlər”: Mühasibat uçotu, audit və iqtisadi təhlil. №4, 21-31 səh.
6. Indukayev. V.P. (2016). Organization of operational accounting and control. production costs. M.: Finance and Statistics, p.274.
7. Cəfərov. E.O. (2016). “ Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq qeyri-maddi aktivlərin hərəkətinə dair əməliyyatlarının uçotda əks etdirilməsi problemləri”: Mühasibat uçotu, audit və iqtisadi təhlil, № 3, 6-21 səh.
8. Karpova. T.P. (2016). Management Accounting: Textbook for universities. M .: Audit, UNITI, 350 p.

Göndərilib: 10.03.2023 Qəbul edilib: 03.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/22/19-22

**Azər Maqsudov**
Bakı Mühəndislik Universiteti
magistrant
azer.maqsudov99@gmail.com

# MÜƏSSİSƏLƏRDƏ MÜŞTƏRİ ƏLAQƏLƏRİ MENECMENTİNİN TƏŞKİLİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

**Xülasə**

Müştəri münasibətlərinin idarə edilməsi effektiv və kollektiv şəkildə tərtib edilərsə və əsas kommunikasiya kanalı kimi istifadə olunarsa, bu, bizə çox ciddi gəlirlər verə bilər. Müəssisələrin əsas məqsədi daha çox satış etməkdir. Bəzən bizneslər gündəlik təlaş içində ən vacib aktivləri olan müştərilərinə məhəl qoymurlar. Müştəri əlaqələri bir şirkətin ən vacib fəaliyyətlərindən biridir. Bu gün hələ müştərisi olmayan şirkət marketinq fəaliyyətinə başlayır. Potensial müştərini aktiv müştəriyə çevirməyə çalışır. Uğurlu marketinq fəaliyyətlərindən sonra satış prosesləri meydana çıxır. Müştəri ilə əlaqələr satışdan sonra da davam edir. Bəzi şirkətlər məmnun müştərilərlə çox yaxşı qarşılıqlı əlaqədə olmaya bilər. Müştəri isə aldığı məhsul və ya xidmətlə bağlı problem yarandıqda şirkətlə əlaqə saxlamaq istəyir. Məhsul və ya xidmətini satan şirkət müştəri ilə düzgün ünsiyyət və qarşılıqlı əlaqəni təmin etməlidir.

***Açar sözlər:*** *müştəri münasibətləri, marketinq, biznes, idarəetmə, xidmət*

**Azer Magsudov**
Baku Engineering University master student
azer.maqsudov99@gmail.com

# ANALYSIS OF THE CURRENT STATE OF ORGANIZATION OF CUSTOMER RELATIONSHIP MANAGEMENT IN ENTERPRISES

**Abstract**

If customer relationship management is designed effectively and collectively and used as a key communication channel, it can give us very serious returns. The main goal of businesses is to make more sales. Sometimes businesses lose sight of their most important asset, their customers, in the hustle and bustle of everyday life. Customer relations are one of the most important activities of a company. Today, a company that does not yet have a customer begins its marketing activities. It tries to convert a potential customer into an active customer. After successful marketing activities, sales processes emerge. The relationship with the customer continues even after the sale. Some companies may not interact very well with satisfied customers. And the customer wants to contact the company when there is a problem with the product or service he bought. A company selling its product or service must ensure proper communication and interaction with the customer.

***Keywords:*** *customer relations, marketing, business, management, service*

## Giriş

Müştərilərlə münasibətlərin idarə edilməsi müştərilərin istək və ehtiyaclarını nəzərə alan, hətta onların istək və ehtiyaclarını əvvəlcədən görən, onlarla uzunmüddətli əlaqələri təmin edən marketinq yanaşmasıdır (Belyayev, 2013: 671). CRM 1 müəssisələrin qarşılaşdığı problemlərə həll yolları təqdim etmək baxımından əhəmiyyətli bir marketinq təcrübəsidir (Demirel, 2007: 296). CRM, müəssisələrin müştərilərlə münasibətlərində müştəri məmnuniyyətini təmin edən, müştərilərlə strateji əlaqələr qurmağı və idarə etməyi hədəfləyən və bunu edərkən texnologiyadan intensiv şəkildə istifadə edən idarəetmə strategiyasıdır (Çiçek, 2005: 60-72).

Bu tədqiqatda müəssisələrdə müştəri əlaqələri menecmentinin təşkilinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsini aparmaq üçün sorğu analizi aparılmışdır (Foss, Stone, Ekinji, 2008: 68-78). Analiz Google Formda hazırlanmış və təsadüfi kütlənin rəyi üçün sosial mediada paylaşılmışdır. Sorğu linkinə keçid:

https://docs.google.com/forms/d/1uw_4rdyu3A13-jl4-aJyRHb33vk1xds9hTJrDlVtKe4/edit




**Şəkil 1. Analiz nəticələri**

Nəticəyə görə 34.8% şəxs bank sektorunda, 60.9% alışveriş, yerdə qalan isə turizm və otelçilik xidmətində müştəri xidmətlərindən yararlanırlar.




**Şəkil 2. Sorğu nəticələri**

Bu insanların 69.6%-i müştəri xidmətlərindən bəzən razı, bəzənsə razı deyillər, 21.7%-i tam razıdırlar, 8.7%-i isə razı deyillər.




**Şəkil 3. Sorğu nəticələri**

Bu sahədə Azərbaycan müəssisələrinin təkmilləşdiyini düşünənlər 17.4%, təkmilləşmədiyini düşünənlər 26.1%, təkmilləşməyə hələ də ehtiyac olduğunu düşünənlərsə 56.5% dir.




**Şəkil 4. Sorğu nəticələri**

Alınan 23 cavaba əsasən respondentlərin 43,5%-i müştəri xidmətinin sürətindən razı, 56,5%-i isə narazıdır.




**Şəkil 5. Sorğu nəticələri**

Qısacası, müştəri münasibətləri ilə bağlı bütün suallarınıza cavab tapmaq bəzən çətin olur, lakin bəzi müştərilər buna baxmayaraq problemi təsdiqləyir. Ona görə də müştərilərə göstərilən xidmətlərin keyfiyyəti daha da yüksəldilməlidir (Buttle, 2016: 295-317).

## Nəticə

Sorğunun nəticələrinə görə, müştəri xidmətlərindən ən çox alış-veriş sektorunda istifadə edilir. İştirakçıların əksəriyyəti müştəri münasibətlərindən razı deyil və Azərbaycan müəssisələrinin tam inkişaf etmədiyini düşünür. İştirakçıların çoxu gözləmə müddətinin uzun olmasından şikayətlənsə də, emal sürətindən və yanaşmadan da narazıdırlar (Barinov, 2013: 189).

İştirakçılar müştəri xidməti ilə bağlı bütün suallarına cavab tapmadıqlarını bildirir və münasibət, təbəssüm və maksimum diqqətin ən vacib amillər olduğunu qeyd edirlər (7).

Respondentlərdən müştəri xidmətində nəyin dəyişdirilməsini görmək istədiklərini soruşduqda, əksəriyyəti daha operativ iş və işlərin daha sürətli həllini istəyirdi (Chalmeta, 2006: 1015-1024).

Bəzi iştirakçılar daha korporativ və sürətli iş həyata keçirmək və bütün Azərbaycanda sürətli əlaqə yaratmaq istəyirlər.

İştirakçıların əksəriyyəti problemi başa düşmək və həll etmək üzərində cəmlənir, bəzi iştirakçılar isə daha peşəkarlıq və gözləmə müddətlərinin azaldılması üçün təkliflər verirlər (9).

## Ədəbiyyat

1. Belyayev. V. I. (2013). Osnovnyye teorii i praktiki marketinga. M.: KNORUS, 671 s.
2. Demirel. Y. (2007). "Müşteri İlişkileri Yönetimi'', İstanbul, IO Kültür Sanat Yayıncılık, 296 s.
3. Çiçek. E. (2005). "Müşteri ilişkileri yönetimini uygulama sürecinde başarıyı etkileyen faktörler". Selçuk Üniversitesi, "Karaman İktisadi ve İdari Bilimler Dergisi". Sayı: 2 Cilt: 5, 60-72 s.
4. Foss. B., Stone. M., Ekinji. Y. (2008). ''What makes a CRM system successful or unsuccessful?'', Database marketing and customer strategy management, Vol.15 (2), p.68-78.
5. Buttle. F. (2016). ''Managing Successful Customer Acquisition: An Exploration'', Journal of Marketing Management, № 22, p.295-317.
6. Barinov. V.A. (2013). Planirovaniye uspeshnogo biznesa. Uchebnoye posobiye, Moskva, Infra-M, 189 s.
7. https://crm-systems.info/siebel-crm/#i-2
8. Chalmeta. R. (2006). ''Customer Relationship Management Methodology'', Journal of Systems and Software, № 79, p.1015-1024.
9. https://dynamics.microsoft.com/ru-ru/crm/crm-tools/

Göndərilib: 26.02.2023 Qəbul edilib: 27.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/22/23-27

**David Hüseynov**
Naxçıvan Dövlət Universiteti
magistrant
huseynov4885@gmail.com

# GƏNCLƏR SOSİAL İŞİN TƏQDİQAT OBYEKTİ KİMİ. AZƏRBAYCAN RESPUBLİKASINDA GƏNCLƏRİN MƏŞĞULLUĞUNUN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

**Xülasə**

Azərbaycan Respublikasında gənclər məşğulluğunun dövlət tənzimlənməsi, gənclərin məşğulluq imkanlarının təmin edilməsi, inkişafı və aktiv iştirakının dəstəklənməsi məqsədilə təşkil edilir. Dövlət gənclərin təhsil, işsizliklə mübarizə, peşəkar inkişaf və sosial aktivləşmə kimi sahələrdə ehtiyaclarını qarşılayacaq tədbir və proqramlar hazırlayır.

İşsizliklə mübarizə sahəsində Azərbaycan hökuməti, gənclərin işgüzarlığa daxil olması üçün bir sıra tədbir və proqramlar həyata keçirir. İş axtarışı və işə salınmaq üçün məsləhət xidmətləri, işə təyin proqramları, işgüzar təlimlər, startap məkanları, mikrokredit proqramları, gənclərin işgüzarlığa və öz işini qurmağa dəstək olmaq üçün təmin edilir.

Peşəkar inkişaf üçün də Azərbaycan dövləti gənclərə dəstək verir. Gənclərin aktiv iştirakı və sosial inkişafı da dövlət tənzimlənməsi altında dəstəklənir.

Bütün bu tədbir və proqramlar Azərbaycan Respublikasında gənclərin məşğulluğunun dövlət tənzimlənməsi altında effektiv şəkildə təmin edildiyini göstərir.

***Açar sözlər:*** *təhsil, peşəkar inkişaf, işsizlik, layihə, sosial fəaliyyət*

**David Huseinov**
Nakhchivan State University
master student
huseynov4885@gmail.com

## Youth as a target of social work. State regulation of youth employment in the Republic of Azerbaijan

**Abstract**

The state regulation of youth employment in the Republic of Azerbaijan is organized for the purpose of providing employment opportunities, development and supporting the active participation of young people. The state prepares events and programs that will meet the needs of young people in areas such as education, combating unemployment, professional development and social activation.

In the field of combating unemployment, the government of Azerbaijan implements a number of measures and programs for young people to enter the business world. Job search and start-up counseling services, job placement programs, business training, startup spaces, and microcredit programs are provided to support youth entrepreneurship and self-employment.

The state of Azerbaijan also supports young people for professional development. Active participation and social development of young people are also supported under state regulation.

All these measures and programs show that youth employment in the Republic of Azerbaijan is effectively ensured under state regulation.

***Keywords:*** *education, professional development, unemployment, project, social activity*

## Giriş

Azərbaycan Respublikasında gənclərin məşğulluğu dövlət tənzimlənməsi altında özəl bir fokus əhatə edən mühüm bir məsələdir. Dövlət gənclərin sosial-iqtisadi inkişafını təmin etmək və onların aktiv iştirakını dəstəkləmək məqsədilə müxtəlif tədbirlər və proqramlar təşkil edir.

Gənclər sosial işin təqdiqat obyekti kimi qəbul edilir, çünki onlar cəmiyyətin inkişafına, bərabərliyə və sürətlənən inkişafa dəstək olan enerji və yenilik potensialına malikdirlər. Bu səbəbdən dövlət gənclərin məşğulluğunun dəyərləndirilməsi və inkişaf etməsi üçün tədbirlər planlaşdırır və icra edir.

Dövlət tənzimlənməsi gənclərin təhsil, peşəkar inkişaf, iş axtarışı və sosial aktivləşmə kimi əsas məşğulluq sahələrində onlara dəstək olmaq məqsədilə proqramlar təşkil edir. Bu proqramlar gənclərə iş gücü bazarına inteqrasiya olmaq, peşəkar bacarıqlarını inkişaf etdirmək və onların cəmiyyətdə daha aktiv rollar oynamaq imkanlarını yaratmaq üçün təcrübə və ehtiyacları üzrə yönəldilmişdir.

Bu giriş Azərbaycan Respublikasında gənclərin məşğulluğunun dövlət tənzimlənməsi mövzusunun əsasını təşkil edir. Dövlətin gənclərə dəstək olmaq və onların sosial-iqtisadi inkişafını təmin etmək üçün cəmiyyət və ekonomiyanın tələblərinə cavab verən bir sıra tədbir və proqramlar hazırladığı vurğulanır.

Gənclər sosial yetkinliyin formalaşması, yetkin dünyaya uyğunlaşma, gələcək dəyişikliklər dövrünü yaşayan sosial-demoqrafik bir qrupdur. Gənclik dövrü müəyyən bir yaş həddini əhatə edir. Bu isə cəmiyyətin sosial-iqtisadi inkişafından, mədəniyyət səviyyəsindən, yaşayış şəraitindən asılıdır. Ölkəmizdə gənclər yaşı 14-29 olan şəxslərdir (Qarayev, 2012: 84). Həyatın bu dövründə insan ehtiyaclarını, qabiliyyətlərini və maraqlarını dərk etməyə başlayır. Bir peşə, tərəfdaş seçimi və ümumiyyətlə həyatın mənası ilə əlaqəli böyük planlar daşıyırlar. Bu ilk cəsarət dövrü ona müəyyən bacarıqlara sahib olmağın dərəcəsini qiymətləndirməyə və hədəflərinə tez nail olmağa imkan verir. Məlumdur ki, bilik, təcrübə, həyata ayıq bir yanaşma müəyyən bir müddət ərzində yaranır, gənclik yaşı isə həddindən artıq iddialılıq, emosional dözümsüzlük, sahib olduqlarının düzgün qiymətləndirilməməsi ilə xarakterizə olunur. Ümumilikdə qeyd etmək lazımdır ki, gənclər hər bir cəmiyyətdə xüsusi sosial funksiyalar yerinə yetirirlər:

1. Əldə edilmiş səviyyəni miras qoyur və cəmiyyətin, dövlətin inkişafının davamlılığını təmin edir, gələcəyin imicini formalaşdırır və sosial inkişaf funksiyasını daşıyır;
2. İqtisadiyyatın, sosial sahənin, təhsilin, elmin və mədəniyyətin inkişafı üçün innovativ potensiala malikdir;
3. Hüquq-mühafizə orqanlarının, ordunun şəxsi heyətinin əsas hissəsini gənclər təşkil edir.

Göründüyü kimi, gənclər hər bir cəmiyyətin nüvəsini təşkil edir. Bu baxımdan gənclərlə iş xüsusi əhəmiyyətə malikdir. Gənclərlə vahid və ardıcıl sosial iş cəmiyyətin dayanıqlı inkişafının və dövlətin qarşısında duran vəzifələrin uğurla həll edilməsinin ən vacib amili olan gənclərin sosial, iqtisadi, reproduktiv funksiyalarının həyata keçirilməsində yüksək səmərəliliyi təmin etmək məqsədi daşıyır (Qəhrəmanov, Əhmədov, 2014: 28).

Gənclərin iş təcrübəsinin az olması və ya olmaması onlara əmək bazarnda tələbatı azaldır. 15-19 yaş arası gənclərin 11,9%-i, 48,4%-i 20-24 yaş arasında, 22,3%-i 25-29 yaş arasında iş təcrübəsi yoxdur. Bundan əlavə, məzunların ixtisasları işəgötürənlərin tələblərinə cavab vermir, lazımi bacarıqlar yoxdur. Son statistik məlumatlara görə, işsizlərin 72%-i məşğulluq xidmətlərinə müraciət etmədən özləri üçün iş axtarır . Bu şəraitdə gənclər arasında məşğulluq sahəsində sosial iş xüsusi aktuallıq kəsb edir. Sosial iş üzrə mütəxəssis əmək bazarının tələblərini nəzərə alaraq məşğulluq mərkəzləri, işə qəbul agentlikləri ilə qarşılıqlı əlaqə qurmaq, gəncləri davamlı təhsil və yenidən hazırlıq proqramlarına cəlb etməklə məşğulluğu fəal şəkildə təşviq edə bilər. Gənclərin məşğulluğunun asanlaşdırılmasında sosial işçinin köməyi çox vacibdir, çünki işsizlik asosial həyat tərzi və gənclər arasında narkomaniya, alkoqolizm, fahişəlik və cinayət kimi fenomenlərə yol aça bilər.

Alkoqolizm və gənclərin anesteziyası müasir cəmiyyətin ən aktual problemlərindən biridir. Psixoaktiv maddələrin istifadəsinin əsas səbəbi insanın mənəvi yoxsulluğu, adekvat dəyər-semantik

göstərişlərin olmaması, ictimai faydalı fəaliyyət və istirahət sahəsində əlverişli təcrübənin olmamasıdır. Gənclər digər insanlarla təmas ehtiyacını və cəmiyyətin əhəmiyyətli sahələrində özünü tanıya bilməməsi səbəbindən alkoqol və narkotik maddələrə qarışırlar. Buna görə də dövlət gənclər siyasətinin prioritet istiqamətləri bunlardır:

- gənclərin sosial təcrübəyə cəlb edilməsi və potensial inkişaf imkanları barədə məlumatlandırılması;
- gənclərin yaradıcı fəaliyyətinin inkişafı və s.

Hər bir cəmiyyətdə iqtisadi inkişafın səmərəlilik göstəricisi həyata keçirilən sosial siyasətin əhalinin həyat səviyyəsinə təsiri əsasında qiymətləndirilir. Azərbaycanda əhalinin rifah halının yüksəldilməsinə, vətəndaş firavanlığının təminatına və insan kapitalının inkişafına yönəlmiş olan iqtisadi inkişaf modeli prioritet məsələlərdəndir. Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin məlumatına görə son illər ərzində 3,4 dəfə iqtisadi artıma nail olan və bu dövrdə ən sürətlə inkişaf edən ölkələrdən biri kimi Azərbaycanda əhalinin maddi təminat və rifah göstəriciləri də mütəmadi yüksəlməkdədir (Abbasov, 2019: 49).

XX əsrin sonunda dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında uşaq və gənclərin problemlərinin həlli sahəsində tədbirlərin görülməsi, onların öz imkan və bacarıqlarını reallaşdıra bilmələri üçün şəraitin yaradılması müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən birinə çevrilmişdir. Ölkə həyatının başqa sahələrində olduğu kimi, gənclərlə iş sahəsində də müəyyən canlanma yaranmış, bir sıra uğurlar əldə edilmişdir.

Sosial siyasət əhalinin sosial müdafiə, sağlamlıq, təhsil, məşğulluq və s. kimi problemlərini həll etməyə istiqamətlənmiş, cəmiyyətin sosial rifahı üçün həyata keçirilən tədbirlərin cəmidir (Mustafayev, 2017: 120). Dövlət tərəfindən icra olunan bu və ya digər tipli tədbirlər dövlətin sosial siyasəti hesab olunur. Sosial siyasət cəmiyyətdəki sosial problemləri nizamlamaq üçün dövlətin əlində olan əsas vasitələrdən biridir. Ölkənin iqtisadiyyatı inkişaf etdikcə milli gəlir artır, bu da vətəndaşlar üçün əlverişli şərait yaradır və onların sosial müdafiəsinin güclənməsinə səbəb olur. Digər tərəfdən isə əhalinin sosial vəziyyəti yaxşılaşdıqca onların əmək məshuldarlığı da artır. Cəmiyyətin sosial-iqtisadi baxımdan təkmilləşməsi istiqamətində aparılan siyasətin mühüm tərkib hissəsi sosial siyasətdir (Əfəndiyev, 2009: 519). Dövlətin sosial siyasətinin məqsədləri, vəzifələri, prioritetləri geniş xalq kütlələrinin iştirakı ilə qanunverici, icraedici orqanlar tərəfindən reallaşdırılır. Əhalinin həyat səviyyəsi ilə əlaqədar olan bütün sosial-iqtisadi problemlərin həllində xüsusi əhəmiyyətə malik olan iqtisadi artım bazar iqtisadiyyatında olduqca vacib məsələlərdəndir. Həmin problemlərə əmək münasibətləri, işsizlik, məşğulluq, işçi qüvvəsindən səmərəli şəkildə istifadə, əhalinin sosial tələbatlarının reallaşdırılması, gəlirlərin artırılmasını və s. aid etmək olar. Sosial yönümlü iqtisadiyyatın formalaşması üçün güclü idarəetmə, dövlət tənzimlənməsi, əmək bazarında səmərəli siyasət vacibdir. Məşğulluq məsələləri ilə bağlı bir çox əsərlərdə haqlı olaraq, işsizlik məsələsinə xüsusi diqqət yetirilir. Çünki işsizlik əmək bazarının ən mühüm komponentlərindən biridir. Lakin bu da nəzərə alınmalıdır ki, işsizliyə səbəb də çox vaxt məşğulluğun təmin olunmamasıdır. "Məşğulluq haqqında" qanuna əsasən işi və qazancı olmayan hər bir şəxs işsiz statusu ala bilər, bunun üçün lazımı sənədlərlə müvafiq orqanlara müraciət edilməlidir.

Burada qiymətləndirmə meyarı kimi seçilən indikatorlar bilavasitə görülən, həyata keçirilən tədbirlərlə gənclərin mövcud vəziyyətinin durumunun necə dəyişməsi arasında zəruri əlaqəni əks etdirməlidir. Bu istiqamətdə gənclərin problemli qrupları ilə sosial işin həyata keçirilməsinə paralel olaraq, sosioloji tədqiqatlar vasitəsilə müvafiq məsələlərin fundamental əsaslarının öyrənilməsi təklif olunur. Mövcud strateji konsepsiyanın icra edilməsi 2020-2025-ci il üçün müəyyənləşdirilən hədəflərə tam çatmağı nəzərdə tutur. Həmin dövrə qədər gənclərin peşə hazırlığının və təhsil səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsi, ən müxtəlif səviyyələrdə ixtisaslaşmış təhsil alanların sayının nəzərəçarpacaq dərəcədə yüksəldilməsi strategiyanın vacib fəaliyyət istiqamətləri sırasındadır.

Digər önəmli məsələlərdən biri gənc kadrların, mütəxəssislərin öz peşə və ixtisaslarına uyğun işlə təmin olunmasıdır. Hazırda bu məqsədlə gənclər arasında işsizliyin səviyyəsinin

azaldılmasından ötrü müxtəlif layihələr, proqramlar həyata keçirilir. Məsələn, bu kimi layihə və proqramlarda həm ali, həm peşə-ixtisas, həm də orta ixtisas təhsil müəssisələrində tələbə və ya şagirdlərin zəruri hallarda yaşayış məkanı, müvafiq yataqxanalarda yerləşdirilməsinin vacibliyi öz əksini tapmışdır.

Ölkəmizdə həyata keçirilən bir çox proqramlarda gənclərin, ilk növbədə, yaşadıqları bölgələrdə və yaxın regionlarda öz peşələrinə, ixtisaslarına uyğun şəkildə işlə təmin olunması üçün tövsiyələr nəzərdə tutulmuşdur.

Beləliklə, dövlət gənclər siyasətinin həyata keçirilməsi gənc nəslə münasibətdə sosial siyasətin vacib elementidir. Dövlət gənclər siyasəti Azərbaycan Respublikasının sosial-iqtisadi, mədəni və milli inkişafı sahəsindəki dövlət siyasətinin ayrılmaz hissəsidir və seçim üçün lazımi şərait yaratmağa yönəlmiş hüquqi, təşkilati, idarəetmə, maliyyə-iqtisadi, elmi, informasiya, kadr tədbirlərinin vahid sistemini təmsil edir. Dövlət gənclər siyasəti gənc vətəndaşların bütün xalqın mənafeyi naminə ictimai formalaşması, inkişafı və özünü həyata keçirməsi üçün hüquqi, iqtisadi, sosial, mədəni, təşkilati şərait və təminatlar yaratmaq məqsədi ilə dövlət orqanlarının, yerli idarəetmə orqanlarının fəaliyyət istiqamətlərindən biridir. Dövlət gənclər siyasəti dövlət hakimiyyəti orqanları tərəfindən yerli hökumətlər, müəssisə, müxtəlif mülkiyyət formalı təşkilatlar, ictimai birliklər, vətəndaşlarla birlikdə, gənclərlə əməkdaşlıq çərçivəsində tədbirlərin hazırlanması və həyata keçirilməsi yolu ilə həyata keçirilir (Həsənov, 2015: 143).

## Material və metodlar

Azərbaycan Respublikasında gənclərin məşğulluğunun dövlət tənzimlənməsi haqqında araşdırma üçün müxtəlif metodlar istifadə edilə bilər. Aşağıda bir neçə əsas metod nümunələri verilmişdir:

- Anketlər: Gənclər arasında məşğulluq və iş axtarışı ilə bağlı mövzuları tədqiq edərkən anketlər tətbiq edilə bilər. Bu anketlər gənclərin məşğulluğu, iş axtarışı təcrübələri, istəkləri, problemləri və dövlət tənzimləməsi tədbirlərinin effektivliyi haqqında məlumat toplamağa kömək edəcəkdir.
- Məlumat bazası analizi: Mövcud məlumat bazaları, statistik məlumatlar, iş axtarışı platformaları və dövlət tənzimləməsi təşkilatlarının verilənlər bazası gənclərin məşğulluğu və dövlət tənzimlənməsi ilə bağlı məlumatları analiz etmək üçün istifadə oluna bilər. Bu analiz iş axtarışı müddətindəki meylləri, işsizlik səviyyəsini, təşkilatların tədbir və proqramlarının effektivliyini qiymətləndirmək üçün istifadə edilə bilər.
- Fokus qrup müsahibələri: Gənclər arasında fokus qrup müsahibələri təşkil edilərək məşğulluq və dövlət tənzimlənməsi ilə bağlı fikirləri, təcrübələri, istəkləri və tələbləri toplamaq mümkündür. Bu metod daha ətraflı məlumat əldə etmək, fərdi narahatlıqları və potensial problemləri müəyyənləşdirmək üçün yararlıdır.
- Sahədə gözlənilən tədqiqat: Araşdırmaçılar gənclər arasında məşğulluq, iş axtarışı və dövlət tənzimlənməsi ilə bağlı məlumat toplamaq üçün sahədə tədqiqatlar apara bilər. Bu, müşahidələr, müsahibələr və etnografik metodlarla əlaqədar ola bilər.

Bu metodların bir və ya bir neçəsinin kombinasiyası Azərbaycan Respublikasında gənclərin məşğulluğunun dövlət tənzimlənməsi ilə bağlı araşdırma üçün istifadə edilə bilər. Hər bir metod ətraflı məlumat toplamağa, problemləri müəyyən etməyə, tədbir və proqramların effektivliyini qiymətləndirməyə kömək edəcəkdir (Qarayev, 2012: 84).

Azərbaycan Respublikasında gənclərin məşğulluğunun dövlət tənzimlənməsi haqqında araşdırma üçün aşağıdakı materiallar istifadə edilə bilər:

- Məsul dövlət orqanlarının məlumatları: Dövlət tənzimləməsi ilə məşğul olan dövlət orqanlarının (məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi) məlumatları əldə edilə bilər. Bu materialar gənclərin iş axtarışı, işsizlik səviyyəsi, peşəkar təhsil və sertifikat proqramları, dövlət tərəfindən təşkil edilən dəstək proqramları və sairə ilə bağlı məlumatlar təmin edəcəkdir.
- Statistik məlumatlar: Rəsmi statistika agentlikləri, sosial və iqtisadi məlumatlar, işsizlik səviyyəsi, iş axtaran və işdə olan gənclərə dair verilər təqdim edən məlumatları təqdim edə bilər. Bu

materialar iş gücü bazarının durumu, gənclərin peşəkar sahələrdə təhsil və iş axtarışı meylləri kimi məsələlər barədə geniş bir ümumiyyət yaradacaq.

- Akademik tədqiqatlar və təlimatlar: Universitetlər və akademik institutlar tərəfindən aparılan araşdırmalar, təlimatlar və dissertasiyalar gənclərin məşğulluğu və dövlət tənzimlənməsi ilə bağlı ətraflı məlumatları təqdim edə bilər. Bu materiallar müxtəlif tədqiqat metodları ilə əldə edilmiş məlumatları, problemləri və çözüm yollarını təqdim edəcəkdir.
- Mətbuat və media məlumatları: Jurnalistlər, mətbuat nümayəndələri və media orqanları tərəfindən dərc olunan məqalələr, xəbərlər, reportajlar və intervyulardan istifadə edilə bilər. Bu materiallar gənclərin iş axtarışı, peşəkar inkişaf, işgüzar təlimlər, dövlət tənzimləməsi ilə bağlı aktual məsələləri və problemləri əks etdirəcəkdir.

Bu materiallar Azərbaycan Respublikasında gənclərin məşğulluğunun dövlət tənzimlənməsi ilə bağlı araşdırma üçün əsas mənbələr kimi istifadə edilə bilər. Onlar məlumatları təqdim edəcək, analiz etməyə kömək edəcək və gənclərə dəstək olmaq üçün daha effektiv tədbirlərin formalaşmasına imkan yaradacaqdır.

## Nəticə

Azərbaycan Respublikasında gənclərin məşğulluğunun dövlət tənzimlənməsi ilə bağlı araşdırmaların nəticələri çeşidlilik göstərə bilir. Ancaq əsas nəticələr aşağıdakı cəhətləri əks etdirir:

1. Dövlət tənzimləməsi gənclərin məşğulluğu üzərində ciddi bir təsirə malikdir. Dövlət təşkilatlarının təqdim etdiyi tədbir və proqramlar sayəsində gənclərə daha çox iş imkanı yaradılır və məşğulluq artırılır.
2. Gənclərin iş axtarışı prosesi çətinliklərlə üzləşə bilər. İşgüzar təlimlər, peşəkar təhsil və mentorluq proqramları kimi dövlət tədbirləri gənclərin iş axtarışında və uyğun karyera inkişafında dəstək olur.
3. Dövlət tənzimləməsi işsizliklə mübarizədə və işgüzarlığın artırılmasında əhəmiyyətli bir rol oynayır. İşsiz gənclərə maliyyə dəstəyi, işgüzar təlimləri və peşəkar inkişaf proqramları təklif edilərək onların iş gücü bazarına inteqrasiyası təmin edilir.
4. Gənclər üçün məşğulluq imkanlarının çeşidliliyi və keyfiyyəti önəmli bir faktordur. Dövlət tənzimləməsi fərqli sahələrdə məşğulluq imkanlarının artırılması və gənclərin peşəkar inkişafını dəstəkləmək məqsədi ilə peşəkar təhsil proqramlarının tənzimlənməsində ciddi addımlar atır.
5. Dövlət tənzimləməsi gənclərin sosial əmək fəaliyyətinə cəlb olunmasını və sosial məqsədləri yerinə yetirmələrini dəstəkləyir. Gənclər sosial işlər və könüllülük təşkilatlarında məşğul olaraq cəmiyyətə faydalı işlər görür və öz inkişafını daha da gücləndirir.

Bu nəticələr Azərbaycan Respublikasında dövlət tənzimləməsinin gənclərin məşğulluğu üzərindəki pozitiv təsirlərini vurğulayır. Bununla birlikdə əlavə araşdırmalar və dəqiq analizlər, gənclərin məşğulluq imkanlarının və dövlət təşkilatlarının tədbir və proqramlarının daha da effektivləşdirilməsi üçün əlavə addımların atılmasını tövsiyə edir.

## Ədəbiyyat

1. Qarayev. F. R. (2012). "Gənclər və Dövlət Tənzimlənməsi". Bakı, 84 s.
2. Qəhrəmanov. E.Ə., Əhmədov. Y.P. (2014). Sosial işin əsasları. Bakı, 28 s.
3. Abbasov. A. R. (2019). "Azərbaycanda Gənclərin İş Axtarışı və İşsizlik Məsələləri". Bakı, 49 s.
4. Mustafayev. A. M. (2017). "Gənclərin İşgüzar Təlimləri və Dövlət Tənzimlənməsi". Bakı, 120 s.
5. Əfəndiyev. M. (2009). Sosiologiya. Bakı, 519 s.
6. Həsənov. İ. M. (2015). “Gənclərin Sosial İşə Cəlb Edilməsi". Bakı, 143 s.

Göndərilib: 14.03.2023 Qəbul edilib: 22.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/22/28-30

**Gülcahan Quluzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
gulcahanquluzade@gmail.com

# AZƏRBAYCANDA BOLONYA PROSESİ: TƏLƏBƏLƏRİN MOBİLLİYİ

## Xülasə

Bolonya prosesi çərçivəsində son iyirmi ildə diqqət mərkəzində olan məsələlərdən biri də professor-müəllim heyətinin və tələbələrin mobilliyidir. Mobillik dedikdə tələbələrin, eyni zamanda universitetlərdə fəaliyyət göstərən akademik heyətin müxtəlif tədris illərində xarici ölkələrə təhsil səfərləri etməsi nəzərdə tutulur. Hazırda mobilliklə bağlı mövcud vəziyyət ölkədən ölkəyə dəyişsə də ümumilikdə Bolonya prosesi və nazirlər konfranslarında qarşıya qoyulan hədəfə hələ nail olunmamışdır. Ölkəmizdə də anoloji hal yaşansa da son illərdə qarşıya qoyulan öhdəliklərlə əlaqədar bir sıra addımlar atılmışdır. Ümumi yanaşsaq, tələbə mobilliyi Bolonya prosesinin prinsipləri arasında tətbiqi ən rahat və təhsil sistemlərindən asılı olmayaraq ölkələrin hər birinə şamil oluna bilən prinsiplərdən biridir. Mobilliyin əvvəlki illərlə müqayisədə daha geniş tətbiq olunması 1980-ci illərdə Avropa Birliyinin təşəbbüsü ilə irəli sürülmüş, 1987-ci ildə fəaliyyətə başlayan ERASMUS proqramları ilə daha da sürətlənmişdir.

***Açar sözlər:*** *Bolonya prosesi, tələbəyönümlü təhsil, tələbə mobilliyi, xaricdə təhsil, keyfiyyət təminatı*

**Guljahan Guluzada**
Azerbaijan State Pedagogy University
master student
gulcahanquluzade@gmail.com

## Bologna process in Azerbaijan: Student mobility

## Abstract

Within the framework of the Bologna process, one of the issues that has been in focus in the last twenty years is the mobility of professors, teaching staff, and students. Mobility means that students, as well as academic staff working in universities, make educational trips to foreign countries in different academic years. Although the current situation regarding mobility varies from country to country, in general, the goal set in the Bologna process and ministerial conferences has not yet been achieved. Although a similar situation is happening in our country, a number of steps have been taken in recent years related to those responsibilities. Student mobility is one of the principles of the Bologna process that is easy to implement and can be applied to every country, regardless of the education system. The wider application of mobility compared to previous years was accelerated by the ERASMUS programs initiated by the European Union in the 1980s and launched in 1987.

***Keywords:*** *Bologna process, student-centered learning, student mobility, education abroad, quality assurance*

## Giriş

Tələbələrin, eləcə də professor-müəllim heyətinin mobilliyi Azərbaycan üçün çox səmərəli addımdır. Belə ki, ölkələr mobilliyə iki əsas səbəbdən maraqlıdır. Birincisi, xarici təcrübə ilə tanış olan və mənimsəyən tələbələr öz vətənlərində əmək bazarı üçün daha rəqabətli kadrlara çevrilirlər. Buna isə ölkə iqtisadiyyatı üçün kifayət qədər önəmli bir yatırım kimi yanaşmaq olar. Digər tərəfdən isə hər bir ölkə daha savadlı ölkə vətəndaşının ərsəyə gəlməsi üçün mümkün olan bütün

imkanları dəyərləndirməlidir. Çünki təhsil üçün xarici ölkələrə - xüsusilə Avropa ölkələrinə yollanan Azərbaycanlı tələbələr bir sıra istiqamətlərdə özlərini inkişaf etdirmə imkanı əldə edirlər. Bunlardan biri dil məsələsidir. Bildiyimiz kimi, Azərbaycanda ana dili ilə yanaşı, rus, ingilis və azsaylı məktəb və ali təhsil müəssisələrində fransız, alman dilləri tədris olunur. Bu dillər universitetlərdə tədris proqramına adətən sadəcə bir semestr üçün əlavə olunduğundan tələbələrin dili mükəmməl mənimsəməsinə xidmət edə bilmir. Ancaq mobillik imkanından yararlanan tələbələr körpü dilin ingilis, rus və ya bu kimi digər ümumişlək dillər olduğu ölkələrdə bir və ya bir neçə dildə danışmağa təşviq olunur, bu minvalla dili təbii mühitdə öyrənmə fürsəti əldə edirlər (Teichler, 2012: 40-44).

Digər bir tərəfdən isə mobillik tələbələrə mədəniyyətlərarası fərqləri müşahidə etmək imkanı yaradır. Hazırda Azərbaycanda multikulturalizm də ali təhsil müəssisələri yoluyla tələbələrə öyrədilən səriştələrdən biridir. Beynəlmiləlləşmə səbəbindən insanların fərqli ölkələrə daha tez-tez səfər etməsi, öz yaşadıqları ölkələri dəyişmələri onların digər mədəniyyətlərə tolerant yanaşmasını tələb edir. Mobillik proqramlarından biri olan ERASMUS azərbaycanlı tələbələrin ən çox müraciət etdikləri proqramlardan biridir. Proqram çərçivəsində müraciət etdiyi layihələrdən asılı olaraq tələbələr fərqli milliyyətlərdən və ölkələrdən olan onlarla tələbə ilə eyni təhsil mühitini paylaşma şansı qazanırlar. Bu isə onların mədəni dəyərlərinin formalaşmasına, həmçinin öz ölkələrini xarici ölkələrdə təmsil etməyi öyrənməsinə kömək olur. Ümumiyyətlə, gələcəklə bağlı proqnozlar onu göstərir ki, növbəti 10-20 ildə multikulturalizm daha da önəmli səriştəyə çevriləcək (Mechtenberg, Strausz, 2007: 124).

Bundan əlavə, xarici ölkələrdə təhsil təcrübəsi yaşayan tələbələr öz yaşıdları ilə müqayisədə daha innovativ və özünəinamlı olurlar. Yeni təhsil mühitində qarşılaşdıqları çətinlik, onların əvvəlki təcrübələrinə yad situasiyalar tələbələrdə problemlərin həllinə yeni baxışın formalaşmasına gətirib çıxarır. Tələbələr daha böyük və çeşidli təcrübələrin bir parçasına çevrilirlər. Bu hal adətən daha aşağı gəlirli tələbələrin daha yüksək həyat standartlarının hökm sürdüyü ölkələrə təhsil üçün yollandıqları zaman baş verir. Bu hal xarici mənbələrdə şaquli mobillik adlandırılır. Şaquli mobillik təcrübəsi yaşayan tələbələr bir sıra çətinliklərlə qarşılaşırlar. Ancaq bu təcrübə sonda onlara daha faydalı ola bilir. Belə ki, öz təhsilini inkişaf etmiş ölkələrdə davam etdirən tələbələr məzun olduqdan sonra öz ölkələrində daha yüksək maaşlı vəzifələrdə çalışırlar (Teichler, 2012: 40-44).

Ancaq tələbə mobilliyi hər bir tələbə üçün üstün cəhətləriylə birgə bəzi çətinliklər də doğurur. Bunlardan biri tələbələrin yeni tədris sisteminə uyğunlaşa bilməməsilə əlaqədardır. Tədris proqramlarının nisbətən daha rahat olduğu və ya dil məhdudiyyətinin olmadığı proqramları bitirib başqa dildə və ya daha təkmilləşmiş proqramlarda təhsilə davam edən tələbələr fənləri keçməkdə çətinlik çəkirlər. Müşahidələr onu göstərir ki, bəzi proqramları tamamlamaqda xarici tələbələr yerli tələbələrə nəzərən daha çox uğursuzluqlarla qarşılaşırlar. Bu zaman fənlərdən kəsrləri olan tələbələrin təhsil müddətləri uzana bilir, bu isə öz növbəsində maddi çətinliklərə, qonaqlama üzrə problemlərə yol açır. Xüsusilə, əməkhaqqı ortalamasının aşağı olduğu ölkələrdən gələn xarici tələbələr bu cür məsələlərin həllində bəzən çətinlik çəkirlər. Bu mövzuda araşdırmalar göstərir ki, Bolonya prosesinə qoşulan ölkələr arasında tələbə mobilliyində ən az problemlə qarşılaşan ölkələr Qərbi Avropa ölkələridir. Bunun əsas səbəbi isə Avropada əksər təhsil sistemlərinin bir-birinə oxşar şəkildə formalaşması, onların öncədən dil biliklərinə mükəmməl səviyyədə sahib olmasıdır (Teichler, 2012: 40-44).

Tələbə mobilliyi təkcə tələbənin yox, həm də ölkənin xeyrinə və ya zərərinə işləyə bilir. Belə ki, bəzi tələbələr mobillikdən qeyri-qanuni yollarla yararlanır. Azərbaycan təcrübəsinə nəzər salsaq son 10-20 ildə bir çox tələbələr xaricdə təhsil almaq məqsədilə MDB ölkələrinə müraciət etmiş və bu ölkələrdəki müxtəlif ali təhsil müəssisələrindən məzun olmuşlar. Ancaq bu tələbələr tamamladıqları ali təhsilə dair diplomların tanınmasında problemlərlə qarşılaşırlar. Bəzi məzunların isə öncədən tanınan diplomları yekun dəyərləndirmələrdən sonra ləğv edilir. Bunun aşkarlanması bir neçə yolla aparılır. Bunlardan birincisi xarici ölkə ali məktəblərində əyani və ya qiyabi əsaslarla təhsil alan tələbələrin tədris ili müddətində tədris aldıqları ali təhsil müəssisələrinə səfər etməmələridir. Bu isə tədrisin onlayn və ya distant olmadığı şəraitdə yolverilməzdir. Bəzi tələbələr isə hüquqi əsaslarla

fəaliyyət göstərməyən ali təhsil müəssisələrində təhsil aldıqları üçün diplomların tanınmasında çətinlik yaşayırlar. Hazırda bu problemlər barədə ictimaiyyət daha da məlumatlandırılır və bu kimi halların azalmasına nail olunur (3).

Bir sıra hallarda isə mobillik ölkənin iqtisadi durumu üçün də səmərəli və hesablanmış addım olur. Belə ki, son illərdə xaricdə təhsil üzrə dövlət proqramı layihəsi tələbələrin müraciətinə açıq elan edilmişdir. “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” vasitəsilə tələbələrin xarici ölkələrdə müəyyən peşə səriştələrinə yiyələnməsi dövlət büdcəsinin də düzgün istiqamətdə idarə edilməsi mənasına gəlir (4). Məsələn, hazırda yetərincə rəqabətli ixtisaslar hesab olunan kompüter elmləri, proqramlaşdırma, mühəndislik kimi ixtisasların tədrisi ölkədə arzuolunan səviyyədə təşkil oluna bilmir. Buna səbəb bu yöndə ölkədə yetərli sayda yerli mütəxəssisin olmaması, digər tərəfdən isə sözügedən ixtisaslar üzrə yaxşı işlənmiş tədris proqramlarının çatışmazlığıdır. Bu cür proqramların tərtibi adətən uzun sürən proses olur, ixtisasların isə davamlı olaraq yeniləndiyini nəzərə alsaq yeni bir proqramın tərtibi inkişafı izləmək və tələbələrin təşviqini gecikdirir (5).

Tələbə mobilliyinin ali təhsil müəssisələrinin və dövlət dəstəyi yolu ilə həyata keçirilməsi ayrı-ayrı fərdlərin mobilliyindən daha üstündür. Bu yolla dövlət xarici ölkələrdə təhsilini davam edən tələbələrin inkişafı, qarşılaşdıqları çətinliklər, karyera imkanları kimi məsələləri də daha yaxından izləyə bilir, lazım gəldikdə prosesə müdaxilə edə bilir. Bu həm də, ölkənin mobillik fəaliyyətində təcrübəsinin artırılması, gələcəkdə bu sahədə görülən işlərin yaxşılaşdırılmasına xidmət edir. Dövlət proqramının şərtlərindən biri tələbənin təhsilini bitirdikdən sonra öz ölkəsinə qayıtmasıdır. Bu düşünülmüş addım tələbələrin məzun olduqdan sonra təhsil aldığı xarici ölkələrdə öz ixtisasları üzrə peşə fəaliyyətinə başlamasının qarşısını alır. Çünki əksər hallarda yerli tələbələrin xarici ölkələrdə uzunmüddətli qalması ölkə üçün “beyin köçü”nə - yəni yüksək intellektli və kompetensiyalı şəxslərin ölkəni tərk etməsinə yol açır. Bu isə başqa sözlə insan kapitalının itməsi deməkdir.

## Nəticə

Beləliklə, Azərbaycanda tələbə mobilliyi üzrə üstünlüklər və çatışmazlıqlar mövcuddur və bu, müvafiq qurumlar tərəfindən davamlı izlənərək müəyyən olunur, üzərində işlənir və layihələr təklif olunur. Gələcəkdə isə daha çox tələbənin mobilliyə cəlb olunması, dövlət və fərdlər üçün faydalı nəticələrin əldə olunması planlaşdırılır.

## Ədəbiyyat

1. Teichler. U. (2012). Higher Education Systems International Centre for Higher Education Research Kassel (INCHER-Kassel), University of Kassel, Germany, p.40-44.
2. Mechtenberg. L., Strausz. R. (2007). The Bologna process: how student mobility affects multi-cultural skills and educational quality. p.124.
3. https://nk.gov.az/az/senedler/qerarlar/%E2%80%9Cxarici-dovlatlarin-ali-tahsila-aid-kvalifikasiyalarinin-taninmasi-qaydalari%E2%80%9Dnin-tasdiq-edilmasi-va--6747
4. “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”. https://dp.edu.az/az/content/78
5. https://ttkf.edu.az/az/xeber?news=150

Göndərilib: 15.04.2023 Qəbul edilib: 17.06.2023

DOI: https://doi.org/10.36719/2789-6919/22/31-34

**Lamiyə Əsədova**
Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
lamiyesed55@gmail.com

# DÖVLƏT İDARƏETMƏ ORQANLARINDA SOSİAL MEDİANIN İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRƏ TƏSİRİ

## Xülasə

Son dövrdə ictimaiyyətlə əlaqələr praktikasında ən diqqətçəkən inkişaf istiqamətlərindən biri internetdən ictimaiyyətlə əlaqə məqsədləri üçün istifadə edilməsidir. Texnoloji infrastruktur üzərində fəaliyyət göstərən bu kanal son illərdə Azərbaycanda da geniş yayılıb. Bu vəziyyət dövlət idarəçiliyi təşkilatlarının internet üzərindən apardıqları ictimaiyyətlə əlaqələr araşdırmalarının əhəmiyyətini artırmışdır. Korporativ internet saytlarının yaradılması ilə başlayan bu proses internet texnologiyasının qeyri-məhdud imkanlarının bir-bir kəşf edilməsi ilə davam edir.

***Açar sözlər:*** *dövlət idarəçiliyi, dövlət orqanları, ictimaiyyətlə əlaqələr, kommunikasiya, sosial media*

**Lamiya Asadova**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
lamiyesed55@gmail.com

## The impact of social media on public relations in public administration bodies

## Abstract

One of the most noticeable development directions in the practice of public relations in recent years is the use of the Internet for public relations purposes. This channel, operating on technological infrastructure, has spread widely in Azerbaijan in recent years.

This situation has increased the importance of public relations research conducted by public administration organizations over the Internet. This process, which began with the creation of corporate websites, continues with the discovery of the unlimited possibilities of Internet technology one by one.

***Keywords:*** *public administration, public bodies, public relations, communication, social media*

## Giriş

Texnologiyanın sürətli inkişafı, internetin sürəti, istifadə sahəsinin genişlənməsi ilə həm sosial sahədə, həm də iş həyatında köhnə vərdişlərin və iş üsullarının bir çoxu dəyişdi və bu dəyişikliklər nəticəsində bir çox yeni anlayışlar həyatımıza daxil oldu ki, onlardan biri də sosial mediadır.

Bu gün dövlət qurumlarının ictimaiyyətlə uzunmüddətli və müsbət əlaqələri inkişaf etdirməsi və bu münasibətləri strateji şəkildə idarə etməsi çox vacib hala gəlib. Sosial media ictimaiyyətlə əlaqələrin və qarşılıqlı əlaqənin qurulması, dialoq əsaslı əlaqələrin inkişaf etdirilməsi, qərarların qəbulu və icrası proseslərində ictimaiyyətin iştirakının təmin edilməsi baxımından dövlət qurumlarına bir sıra imkanlar təqdim edir.

Sosial medianın dövlət qurumları və ictimaiyyət arasında əlaqələrin qurulması baxımından verdiyi imkanlardan yararlanmaq onun qarşılıqlı əlaqə və iştiraka dəstək verən xüsusiyyətlərindən və təmin etdiyi dialoq imkanlarından tam istifadə edilməsindən asılıdır. Sosial media dövlət qurumlarının ictimaiyyətlə çox sürətli ünsiyyət qurmasına şərait yaradır və dialoqla qarşılıqlı əlaqəni gücləndirmə xüsusiyyəti ilə seçilir.

**Dövlət idarəetmə orqanlarında sosial medianın ictimaiyyətlə əlaqələrə təsiri**

Manuel Castellsin sözləri ilə desək, "fərdlər indi qlobal və yerli olaraq birləşmiş, bir-birinə bağlı şəbəkə cəmiyyətində yaşayırlar" (Manuel, 2022: 8). Son illərdə sosial medianın populyarlığı dünyanın ünsiyyət tərzində inqilab edib. Bununla belə, yeni texnologiyalar və sosial media hökumətlə vətəndaşlar arasındakı əlaqəni dəyişə bilər, çünki onlar dövlət idarəçiliyinin yeni və açıq formata çevrilməsinə qəti şəkildə töhfə verir və aşağıdakılarla xarakterizə olunur:

a) vətəndaşların ictimai işlərdə fəal iştirakı;

b) dövlət xidmətləri arasında və hökumətlə vətəndaşlar arasında sıx əməkdaşlıq;

c) dövlətin fəaliyyətinin şəffaflığı;

Sosial medianın təmin etdiyi ani, birbaşa və interaktiv kommunikasiya komponentləri bütün səviyyələrdə hökumətlər üçün xüsusilə faydalı ola bilər, çünki onlar öz vətəndaşları ilə daha da şəffaflığa, iştirakçı olmağa və əməkdaşlıq etməyə söz verirlər (Həsənov, 2).

Hərtərəfli quruluşu sayəsində kütlələrə çox asan çatan sosial media bəzi əsas xüsusiyyətlərə malikdir. Bu əsas xüsusiyyətlər aşağıdakılardır: sosial media asanlıqla əldə edilə bilən, ölçülə bilən, faydalı texnologiyadır; sosial media həm fərdi ünsiyyətə, həm də kütləvi ünsiyyətə imkan verir; sosial media əhəmiyyətli təsir potensialına malikdir; sosial media davamlılıq təşkil edir; sosial medianın təkrarlanmaq xüsusiyyəti var; axtarış xüsusiyyətinə malikdir; sosial media ölçülə bilər; sosial media mövqesizdir.

Bu əsas keyfiyyətləri sosial medianın sürətlə yayılmasına və ictimaiyyətlə əlaqələrdə istifadə olunan alətlər sırasında öz yerini tutmasına gətirib çıxarıb. Sosial medianın sürəti, xərclərin azaldılması, ani geri bildirim, ölçülə bilən və məkan məhdudiyyətlərinin olmaması ictimaiyyətlə əlaqələrdə sosial medianın ənənəvi KİV-i üstələməsinə imkan verib.

İnformasiya-kommunikasiya texnologiyalarında baş verən inkişaflar və onların insanlara təsiri ilə dünyada və Azərbaycanda sosial medianın istifadə sahələrinə hər gün yeniləri əlavə olunur. Ümumiyyətlə, sosial media tətbiqləri siyasət, ictimai hərəkatların təşkili və idarə olunması, marketinq və ticarət, reklam, təhsil, insan resursları, ictimaiyyətlə əlaqələr, kommunikasiya, xəbər və mesaj mübadiləsi, qarşılıqlı əlaqə, korporativ və şəxsi imicin və görünürlüyün artırılması, əyləncə və bir çox başqa sahələrdə geniş istifadə olunur (Gülaslan, 2018: 59).

"We are social" rəqəmsal marketinq saytı tərəfindən hər il dərc olunan və qlobal miqyasda internet və sosial mediadan istifadə statistikasını özündə əks etdirən hesabatda dünyada və Azərbaycanda sosial mediadan istifadə ilə bağlı məlumatlar aşağıda verilmişdir. Qlobal miqyasda internet və sosial mediadakı məlumatlardan bəhs edən, qitə və milli təfərrüatları ehtiva edən hesabat 2023-cü ilin əvvəlinə aid məlumatları əhatə edir.




**Dünyada sosial media istifadəsi (yanvar, 2023)**

2022-ci il noyabrın 15-də dünya əhalisi 8 milyardı keçib, 2023-cü ilin əvvəlində isə 8,01 milyard nəfərə çatıb. Bu gün dünyada 5,16 milyard internet istifadəçisi var, yəni dünya əhalisinin 64,4 faizi hazırda onlayndır. Keçən ilin məlumatlarında əsasən, son 12 ayda qlobal internet istifadəçilərinin ümumi sayı 1,9% artıb. Hazırda dünyada 4,76 milyard sosial media istifadəçisi var

ki, bu da ümumi dünya əhalisinin 60%-nə bərabərdir. Sosial media istifadəçilərinin artımı, bu il 137 milyon yeni istifadəçinin əlavə edilməsi ilə illik cəmi 3 faiz artıma bərabərdir. (4)




**Dünyada ən çox istifadə edilən sosial media platformaları (yanvar, 2023)**

Hesabata əsasən, sosial media platforması əsasında aktiv istifadəçilərin sayı ilə bağlı ədədi dəyərlər araşdırıldıqda: Facebook (2,598 milyon) ən çox istifadə olunan sosial platforma olaraq ilk sırada yer alır. Onun ardınca Youtube (2,514), Whatsapp (2,000), Instagram (2000), Wechat (1,309), Tiktok (1,501), FB messenger (931), Douyin (715), Telegram (700), Snapchat (635), Kuaishou (626), Sina weibo (584), QQ (574), Twitter (556), Pinterest (445) ən çox istifadə edilən sosial media platformalarıdır. (4)




**Azərbaycanda sosial media istifadəsi (yanvar, 2023)**

2023-cü ilin yanvar ayında Azərbaycanda 8,93 milyon internet istifadəçisi olub. 2023-cü ilin əvvəlinə Azərbaycanda internetin istifadə səviyyəsi ümumi əhalinin 86%-ni təşkil edib. 2022-2023-cü illər arasında Azərbaycanda internet istifadəçilərinin sayı 49 min (+0,6%) artıb. 2023-cü ilin yanvar ayına olan məlumata görə, 10,39 milyon əhalisi olan Azərbaycanın 4,15 milyonu aktiv sosial media istifadəçisidir. (5)

| Sosial media platformaları | nəfər | % (ümumi əhali) |
|---|---|---|
| **İnstagram** | 3,25 milyon | 31.30% |
| **Facebook** | 1,50 milyon | 14.40% |
| **Linkedln** | 670 min | 6.50% |
| **Messenger** | 606,7 min | 5.80% |
| **Twitter** | 304,5 min | 2.90% |

**Azərbaycanda ən çox istifadə olunan sosial media platformaları (yanvar, 2023)**

Azərbaycanda sosial media getdikcə daha çox müxtəlif məqsədlər, o cümlədən şəxsi ünsiyyət, xəbər və məlumat mübadiləsi, marketinq və reklam, siyasi fəallıq üçün istifadə olunur.

Azərbaycanda bir çox müəssisə və təşkilatlar yeni müştərilərə çatmaq, məhsul və xidmətlərini tanıtmaq üçün sosial media platformalarından istifadə edirlər. (5)

Sosial media dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələr üçün vacib alətə çevrilmişdir. Bunun səbəbləri bunlardır:

- Artan əhatə
- Birbaşa ünsiyyət
- Real vaxt yeniləmələri
- Xərc baxımından daha səmərəli
- Rəy və əlaqə

Bütövlükdə, sosial media dövlət orqanlarına öz görünürlüklərini artırmağa, maraqlı tərəflərlə daha effektiv ünsiyyət qurmağa, rəy və əlaqə əldə etməyə kömək edə biləcək güclü vasitədir. O, dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələr fəaliyyətinin tərkib hissəsinə çevrilmişdir.

## Nəticə

Bu gün sosial media ünsiyyət və məlumat mübadiləsi mərkəzinə çevrilib. Dövlət orqanları bu dəyişikliyə ayaq uydurur və sosial mediadan səmərəli istifadə etmə istiqamətində addımlar atır. Sosial medianın ictimaiyyətlə əlaqələrə təsiri dövlət qurumlarının cəmiyyətlə ünsiyyət və qarşılıqlı əlaqəsini kökündən dəyişib. Ənənəvi ictimaiyyətlə əlaqələr vasitələri dövlət qurumlarına öz mesajlarını və elanlarını məhdud auditoriyaya çatdırmağa imkan versə də, sosial media platformaları milyonlarla insana çıxış imkanı verir. Bu, dövlət orqanlarına birbaşa geniş auditoriyaya çatmaq və təsir etmək imkanı verir. Sosial media mesajların anında yayılmasına imkan verir və cəmiyyətlə qarşılıqlı əlaqə prosesini sürətləndirir. Sosial media dövlət qurumlarının şəffaflığını, hesabatlılığını və iştirak prinsiplərini gücləndirir. Cəmiyyət sosial şəbəkələr vasitəsilə dövlət idarəetmə orqanları ilə daha rahat ünsiyyət qura, onları maraqlandıran sualları verə, problemlərini bildirə və rəy bildirə bilər. Bu vəziyyət dövlət qurumlarına cəmiyyətin gözləntilərini daha yaxşı anlamağa və xidmətlərini buna uyğun formalaşdırmağa imkan verir.

## Ədəbiyyat

1. Manuel. C. (2022). “The Rise of the Networked Society”, p.8.
2. Həsənov. M. “Müasir Azərbaycanda sosial medianın inkişaf yolu”, p.2.
3. Gülaslan. T. (2018). “Kamu Yönetiminde Sosyal Medya Kullanımı Ve Yönetimi: Temel İlkeler Ve Öneriler”, p.59.
4. https://datareportal.com/reports/digital-2023-global-overview-report
5. https://datareportal.com/reports/digital-2023-azerbaijan

Göndərilib: 08.03.2023 Qəbul edilib: 27.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/22/35-38

**Mirbaba Agharahimov**
Baku State University
master student
mirbabaagarhimov@gmail.com

# DIGITIZED CULTURAL HERITAGE AS AN OBJECT OF INTELLECTUAL PROPERTY

## Abstract

This article explores the concept of digitized cultural heritage as an object of intellectual property and examines the legal framework for its protection. It delves into the areas of intellectual property, such as copyright and patent law, and discusses the challenges and considerations involved in safeguarding digitized cultural heritage. By analyzing the intersection of digitization and intellectual property rights, this article provides insights into the complex landscape surrounding the protection of our shared cultural heritage in the digital age.

***Keywords:*** *digitized cultural heritage, intellectual property, copyright protection, patent protection, digitization, legal framework.*

**Mirbaba Ağarəhimov**
Bakı Dövlət Universiteti
magistrant
mirbabaagarhimov@gmail.com

## Rəqəmsallaşdırılmış mədəni irs əqli mülkiyyətin obyekti kimi

## Xülasə

Bu məqalə əqli mülkiyyət obyekti kimi rəqəmsallaşdırılmış mədəni irs anlayışını tədqiq edir və onun mühafizəsinin hüquqi bazasını araşdırır. O, müəllif hüququ və patent hüququ kimi əqli mülkiyyət sahələrini araşdırır və rəqəmsallaşdırılmış mədəni irsin qorunması ilə bağlı çətinlikləri və mülahizələri müzakirə edir. Rəqəmsallaşdırma və əqli mülkiyyət hüquqlarının kəsişməsini təhlil edərək, bu məqalə rəqəmsal əsrdə ortaq mədəni irsimizin qorunmasını əhatə edən mürəkkəb mənzərə haqqında anlayışlar təqdim edir.

***Açar sözlər:*** *rəqəmsallaşdırılmış mədəni irs, əqli mülkiyyət, müəllif hüquqlarının qorunması, patent qorunması, rəqəmsallaşdırma, qanunvericilik bazası.*

## Introduction

In an increasingly digital age, the preservation and dissemination of cultural heritage have found new dimensions through digitization. The digitization of cultural artifacts and documents has revolutionized the way we access and appreciate our shared history. However, with this transformation comes the need to address the legal aspects of intellectual property rights. This article explores the concept of digitized cultural heritage and delves into the protection of cultural heritage as an object of intellectual property.

In general, it would be more appropriate to clarify and analyze the question of what is digital cultural heritage. As we know, digitized cultural heritage refers to the process of converting physical cultural artifacts, historical documents, artworks, and other items of cultural significance into digital formats. It involves the use of modern technologies to capture, store, and display cultural heritage in digital form, making it more accessible and widely available to individuals and institutions around the world. The digitization of cultural heritage has brought about a revolution in the way we interact with and appreciate our shared history (Pugatch, 2006: 315-318). It allows for the preservation of fragile or deteriorating artifacts, making them accessible for future generations.

Through digitization, cultural heritage materials can be stored in digital repositories, eliminating the risks associated with physical deterioration, loss, or damage.

Various methods are used to digitize cultural heritage items. For instance, high-resolution scanning is employed to capture images of paintings, photographs, or manuscripts, preserving every detail and nuance. Three-dimensional (3D) scanning techniques are utilized to create digital replicas of sculptures, archaeological artifacts, or historical buildings, enabling virtual exploration and study.

Digitized cultural heritage offers numerous advantages over traditional physical preservation methods. Firstly, it allows for wider access and dissemination. Digital representations of cultural artifacts can be made available online, reaching a global audience and breaking down geographical barriers. Researchers, students, and enthusiasts can explore cultural heritage collections from the comfort of their own homes, reducing the need for physical travel and enabling greater inclusivity.

Additionally, digitization facilitates new forms of interaction and engagement with cultural heritage. Virtual reality (VR) and augmented reality (AR) technologies enable immersive experiences, where users can virtually visit historical sites, interact with artifacts, or explore reconstructed ancient landscapes. These interactive experiences enhance education, research, and the overall appreciation of cultural heritage (Park, 2008: 761-766). Moreover, digitized cultural heritage opens up opportunities for data analysis and research. Digital collections can be searched, analyzed, and cross-referenced more efficiently, enabling new insights and discoveries. Machine learning and artificial intelligence techniques can be applied to extract information from digitized documents or classify artifacts, aiding in the identification and interpretation of cultural heritage.

Despite the many benefits of digitized cultural heritage, challenges persist. The process of digitization requires significant resources, including specialized equipment, skilled personnel, and funding. Moreover, issues such as copyright, intellectual property rights, and ethical considerations must be addressed when digitizing and disseminating cultural heritage.

Another interesting issue is whether cultural heritage is protected as an object of intellectual property rights after digitization. The protection of cultural heritage as an object of intellectual property rights after digitization is a complex and evolving area. While digitization facilitates access and dissemination, it also raises questions about the legal framework governing these digital representations. Various areas of intellectual property play a role in safeguarding digitized cultural heritage, primarily copyright and, to some extent, patent law (3).

Copyright law plays a significant role in protecting digitized cultural heritage. Copyright grants exclusive rights to creators over their works, which can extend to digitized representations of cultural artifacts, historical documents, and artworks. In many cases, cultural heritage institutions digitize works that are already in the public domain, meaning that copyright protection has expired. However, the digitization process itself can create new copyrightable elements, such as digital reproductions, annotations, or accompanying metadata, which may be subject to copyright protection. It is important to note that copyright protection is territorial and varies across jurisdictions. The duration of copyright, the criteria for copyrightability, and the exceptions and limitations differ from country to country. Determining the copyright status of older works can be complex, and institutions need to carefully assess the copyright implications of digitizing cultural heritage.

To qualify for copyright protection, a work must meet certain criteria, such as originality and fixation in a tangible medium. In the context of digitized cultural heritage, copyright may exist in newly created elements that result from the digitization process itself, such as enhanced images or digitization-specific annotations. Copyright protection provides exclusive rights to copyright holders, which typically include cultural heritage institutions, individual creators, or their heirs. These rights include the exclusive right to reproduce, distribute, display, perform, and create derivative works based on the digitized cultural heritage. Institutions or individuals who wish to use digitized cultural heritage need to obtain appropriate permissions or licenses from the copyright

holders, unless the use falls within the scope of copyright exceptions or limitations, such as fair use or fair dealing.

Applying copyright law to digitized cultural heritage poses several challenges. Firstly, determining the copyright status of older works can be intricate, particularly when considering international copyright laws and the varying durations of protection. Copyright may have expired in one jurisdiction but still be in force in another. Additionally, the digitization process itself can raise copyright issues. Decisions made during digitization, such as cropping images, enhancing colors, or applying restoration techniques, may introduce new copyrightable elements or modifications that could be protected separately (Merges & Lemley, 2007). Another important consideration is the principle of fair use (or fair dealing in some jurisdictions). Fair use allows for limited use of copyrighted works without seeking permission from the rights holders, typically for purposes such as criticism, comment, news reporting, teaching, scholarship, or research. Fair use provisions may apply to digitized cultural heritage, enabling its use in educational, research, or transformative contexts. However, determining what constitutes fair use can be subjective and context-dependent.

Apart from copyright, other forms of intellectual property protection, such as patent law, have limited applicability to digitized cultural heritage. Patent law primarily protects inventions and technical innovations. While the digitization process may involve technological advancements or new software tools, these innovations may not always meet the criteria for patentability, such as novelty, inventive step, and industrial applicability, in the context of digitizing cultural heritage. It is worth noting that certain databases or collections of digitized cultural heritage may be protected under the sui generis database right in some jurisdictions. This right grants the creator or compiler of a database the exclusive right to extract or reuse substantial parts of the database, provided it meets certain criteria defined in national legislation (5).

In the context of digitized cultural heritage, patent protection may be relevant when technological advancements or novel software tools are used in the digitization process. For example, if a cultural heritage institution develops a unique scanning technique or a software algorithm specifically designed for digitizing artifacts, it may be eligible for patent protection (6).

However, it is important to note that not all aspects of digitized cultural heritage will meet the requirements for patentability. Digitization itself, which involves the conversion of physical objects into digital representations, may not necessarily qualify as a patentable invention. Patent protection in the realm of cultural heritage is more likely to apply to technological innovations associated with digitization rather than the digitized artifacts themselves. It is worth mentioning that the scope of patent protection is generally narrower than copyright protection. Patents provide exclusive rights to the inventor for a limited period, typically 20 years, during which others are prohibited from using, making, selling, or importing the patented invention without permission (7).

As we have already mentioned, digitized cultural heritage opens up exciting possibilities for preserving and sharing our collective history. However, it also raises important questions regarding the legal protection of these digital representations. While copyright law plays a significant role in safeguarding digitized cultural heritage, challenges exist in determining copyright status and applying fair use principles. Patent law, on the other hand, has limited applicability in this domain. Striking a balance between access, preservation, and intellectual property rights remains a crucial task for policymakers, cultural institutions, and society as a whole to ensure the continued protection and appreciation of our digitized cultural heritage (Lai, 1998: 133-153).

## Conclusion

In conclusion, cultural heritage, as an object of intellectual property, is subject to legal protection after digitization, primarily through copyright law. However, the application of copyright law to digitized cultural heritage poses challenges related to determining copyright status, applying fair use principles, and addressing the digitization process's impact on copyrightable elements. Other forms of intellectual property protection, such as patents, have limited relevance in this

context. Striking a balance between protecting intellectual property rights and ensuring broad access to digitized cultural heritage remains a complex and evolving task.

As well as, digitized cultural heritage represents a transformative approach to preserving, accessing, and sharing our collective history. It combines technology, preservation efforts, and global connectivity to ensure the long-term availability and appreciation of cultural artifacts and documents. By embracing digitization, we can safeguard cultural heritage for future generations while opening up new avenues for exploration, research, and cultural exchange.

## References

1. Pugatch. M. P. (2006). The international legal framework for the protection of intellectual property in biotechnology, p.315-318.
2. Park. W. G (2008). International patent protection: Research Policy, p.761-766.
3. "Digital Heritage in Azerbaijan: Preservation, Access, and Legal Framework" by Shahin Novruzlu and Kamran Aliyev. (https://www.mdpi.com/2571-9408/2/2/9).
4. Merges. R. P. & Lemley. M. A (2007). Intellectual property in the new technological age. Aspen Publishers.
5. "Cultural heritage and digitization: Issues and challenges" by Eleni Bozia and Maria Economou. (https://www.sciencedirect.com/science/article/pii/S2212017313001243)
6. "The Digitization of Cultural Heritage: Challenges and Opportunities" by Anastasia Karagianni and Athanasios Voulodimos. (https://www.mdpi.com/2504-3900/60/1/28)
7. "Azerbaijani Cultural Heritage" by the Ministry of Culture of Azerbaijan (https://mct.gov.az/en/pages/51)
8. Lai. E. L. (1998). International Intellectual Property Rights Protection and the Rate of Product Innovation, Journal of Development Economics, p.133-153.

Göndərilib: 11.03.2023 Qəbul edilib: 30.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/22/39-41

**Səma Rəhimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
samaragimova3@mail.ru

# SİNİFDƏKİ FİZİKİ MÜHİTİN ŞAGİRDLƏRİN AKADEMİK BACARIQLARINA TƏSİRİ

**Xülasə**

Məqalə təhsil müəssisələrində ekoloji psixologiyanın əhəmiyyəti haqqında məlumat verir. Fiziki mühitin şagirdlərin öyrənmə bacarıqlarına, nailiyyətlərinə və davranışlarına necə təsir etdiyi vurğulanmışdır. Effektiv öyrənmə mühiti bir neçə amilin birləşməsidir. Buna misal olaraq yetərli istifadə sahəsi, səs-küy, hava şəraiti, işıqlandırma və s. göstərmək olar. Bu tədqiqat məktəblər və onların fiziki mühiti ilə bağlı son tədqiqatların nəticələrini nəzərdən keçirir.

***Açar sözlər**: məktəbəqədər,mühit psixologiyası, fiziki mühit, ekologiya, sinif şəraiti*

**Sama Rahimova**
Azerbaijan State Pedagogical University
master student
samaragimova3@mail.ru

# The effect of the physical environment in the classroom on students' academic skills

**Abstract**

This paper sets out an explanation about the importance of the environmental psychology in preschools. The field of environmental psychology has emphasized how the physical environment affects feelings and behaviors. Preschools are systems in which the environment is just one of many interacting pedagogical, socio-cultural, curricular, motivational and socio-economic factors. Effective learning setting is a combination of several different factors; adequate usable space, noise, air conditions, color and lighting. This study considers implications from recent researches about physical environment in preschools and their reflections to the literature in the light of environmental psychology.

***Keywords:** preschool, environmental psychology, physical environment, ecology, classroom environment*

## Giriş

Təhsil hər bir şəxsin həyatında önəmli rola malikdir. Uşaqlıqdan yetkinlik dövrünə qədər inkişaf yolu keçən, pərvazlanıb müstəqil həyata qədəm qoyan hər bir kəsin yaddaşına həmişəlik həkk olunan məktəb illərinin əsas memarı müəllimdir. Sinfi bir orkestrə bənzətsək, müəllim onu idarə edən dirijordur. Müəllim sinifdə fəal tədris mühiti yaradan, bu prosesi idarə edən yaradıcı şəxs, eyni zamanda şagirdləri real həyata hazırlayan, onlara zəruri bilik və bacarıqlar aşılayan, sosiallaşmasına yardım göstərən liderdir. Buna görə də o, ilk növbədə, şagirdlərin psixologiyasını, maraq və meyllərini öyrənməli, güclü, zəif tərəflərini müəyyən etməli və buna uyğun təlim forması və iş üsulları seçməlidir (İbadova, 2022).

Ətraf mühit canlı və dəyişən bir sistemdir. Bu fiziki mühit bizim necə hiss etdiyimizi, düşünməyimizi və davranmağımızı şərtləndirir, həmçinin dramatik şəkildə təsir edir. Həyatı yaşayarkən bu mühit bizim ya xeyrimizə işləyir, ya da əleyhimizə. Fiziki mühit şagirdlərin daxilində baş verən davranışlarda və ya mədəni təcrübələrdə mühüm rol oynayır (Narucki, 2008: 27).

Təlim mühiti uşaqların təfəkkür, sosial, emosional, fiziki və yaradıcı inkişafına böyük təsir göstərir. Tərbiyəçilər fiziki və psixoloji baxımdan təhlükəsiz və həvəsləndirici mühit yaradaraq uşaqların müstəqil və qrup tədqiqatları, oyun, müxtəlif vasitələr və digər uşaqlarla və böyüklərlə qarşılıqlı əlaqə vasitəsilə inkişafı dəstəkləyirlər (3).

Uşaqlar vaxtlarının böyük bir hissəsini məktəb sinfində oturaraq keçirirlər. Bura elə bir yerdir ki, onlar yüksək nailiyyətlərə sahib olmaq üçün zəruri və uyğun hesab edilən bacarıqlara yiyələnirlər.

Sinif otağı onların özləri haqqında anlayış əldə edəcəkləri və biliklərini təqdim edəcəkləri yerdir. Əgər həqiqətən də məktəblər gələcək nəslin öyrədilməsində böyük rol oynayırsa müvəffəqiyyətli cəmiyyət üzvlərinin necə olacağından əmin olmaq üçün hər cür addım atılmalıdır.

Bu gün bir çox sinif otaqları üçün standart masa düzülüşləri vardır. Bu sinfi tənzimləmə sistemi şagirdlərin diqqətlərini itirmələrinə səbəb olur və sinifdə davranış pozuntularına şərait yaradır (Grubaugh, Houston, 1990: 1990, 375). Şagirdin müvəffəqiyyətinə nəzərəçarpacaq təsir göstərən ilk sahələrdən biri fiziki mühitdir. Bu, müxtəlif detallardan ibarət ola bilər. Sinifdə istifadə olunan resurslar, rənlər, fiziki detallar sinfin əlverişli olub-olmayacağına səbəb olur. Sadalanan elementlər ayrı-ayrılıqda böyük təsirə malik olmaya bilər, lakin birgə istifadə zamanı şagirdin öyrənmə qabiliyyətini gücləndirməkdə böyük rol oynamaqdadır.

Sinfin necə təşkil olunduğu şagirdlərin nizam-intizamına təsir edə bilər. Şagird sinif otağına girdiyi zaman müəllim masasının dağınıq olduğunu görərsə bu onda müəllimin mühitə kifayət qədər diqqətlə yanaşmadığı fikrini aşılayacaqdır (Caroline, Gaurdino, Fullerton, 2010: 8). Bu düşüncə tərzi ilə artıq o, başqa digər qüsurlar axtarmağa başlayacaqdır. Əgər müəllim mühitə qarşı belə diqqətsiz yanaşarsa, şagird də çox güman ki, bu düşüncə tərzi ilə formalaşacaqdır. Müəllimlər bu biliklərdən istifadə edərək sinfi strukturlaşdıra bilər. Onlar divarlara qaydaları yerləşdirməklə hər bir şagirdin onlardan nə gözlədiyini bilmələrinə və ona uyğun davranmalarına şərait yarada bilərlər.

Məktəbin bir neçə faktoru vardır ki, onlar şagirdin stress səviyyəsinə, diqqətinə, maraqlarına və s. təsir edir. Bu keyfiyyətlər də öz növbəsində psixososial amillərdən, işin təşkilindən, istifadə olunan təlim metodlarından, eləcə də fiziki mühitə daxil olan bir sıra amillərdən asılı ola bilər (Lundquist, Kjellberg, Holmberg, 2002: 22). Mühitlər onların çətin olub-olmamasına görə, məqsədlərinə və ölçüləbilən fiziki xüsusiyyətlərinə görə müəyyən edilə bilər. Həmin fiziki xüsusiyyətlərə daxildir: işıqlandırma, səs, istifadə olunan rənglər, hava şəraiti-iqlim və s. (Spivack, Askay, Rogelberg, 2009: 37).

Earthan (2004) temperatur, istilik və havanın keyfiyyətini şagird üçün ən vacib fərdi elementlər kimi qiymətləndirir. Bundan əlavə, kondisionerlərin, havalandırma və istilik sistemlərinin keyfiyyətinin bu prosesə töhfə verdiyi diqqətəlayiqdir (Dockrell, Shield, 2004: 115). Məktəblər uşaqların ən çox vaxt keçirdikləri qapalı məkanlardan biridir. Vaxtlarının çoxunu açıq məkandan çox qapalı məkanda xərcləyirlər. Buna görə də qapalı məkandakı havanın keyfiyyəti ən az açıq məkanlardakı qədər keyfiyyətli olmalıdır.

Sinif şəraitində həm istifadə olunan rənglər, həm də tekstura böyük təsir göstərir. Toxunma hissi bilavasitə idrakla bağlıdır və rənglərin davranışa təsir edən geniş aspektləri vardır. Soyuq rənglər sakitləşdirici təsirə malikdir. İsti rənglər isə istilik, həyəcan yaratmağa meyilli rənglərdir. Qeyd olunanların hər biri öz növbəsində istifadə olunmalı, ifratdan qaçınılmalıdır. Güclü rəng sxeminin həddindən artıq istifadəsindən qaçınılmalıdır. Çünki bunun həddən artıq istifadəsi həyəcanlı davranışları stimullaşdıra bilər. Sinif otaqlarının işıqlandırılması şagirdlərin öyrənmə prosesi zaman çox mühümdür.

Yaxşı mühit uşaqlara özlərini təhlükəsiz və azad hiss etmələrinə kömək göstərəcəkdir. Hisslər bu mövzuda böyük əhəmiyyət kəsb edirlər. Uşaqların müsbət inkişafları üçün yaxşı dizayn olunmuş sinif mühitləri lazımdır. Bir çox araşdırma bizə 0-6 yaş arasındakı inkişafın önəmini vurğulayır. Biz şagirdləri yaxşı təşkil olunmuş dizaynla təmin etsək, onların gələcək həyatları üçün əllərində bu bacarıqlar açar rolunu oynayacaq.

## Nəticə

Bir neçə il ərzində münasibətlərə xüsusi önəm verən memarlıq təşkili, müxtəlif sosial sahələrə xas olan vərdişlər və bacarıqlar haqqında yeni perspektivlər inkişaf etdirildi. Bu məqalə erkən uşaqlıq dövründə ətraf mühit psixologiyasını və onun keyfiyyətini ümumiləşdirir.

Müəllim bəzən şagirdləri öyrədən zaman hansısa mühit növündən daha artıq istifadə edir. Əgər təlim prosesində dəstəkləyici mühitin hansısa bir növünə məqsədsiz olaraq üstünlük verilirsə, bu, şagirdin tez yorulmasına və diqqətinin yayınmasına gətirib çıxarır. Bu baxımdan müəllim dərsi üçün optimal resurs istifadəsini müəyyənləşdirməli və ona uyğun dərs mərhələlərini təyin etməlidir. Dəstəkləyici təlim mühiti uşaqların müstəqilliyinə imkan yaradır, onların təhsil uğurunun təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. İbadova. B. (2022). Sinfin idarə olunması: vəzifələr, tələblər. Bakı,Azərbaycan müəllimi qəzeti,
2. Narucki. D. (2008). School building condition, school attendance, and academic achievement in New York City public schools: A mediation model. Journal of Environmental Psychology. p.27.
3. İnkişafetdirici təlim mühitinin mahiyyəti və prinsipləri. http://mektebeqeder.blogspot.com/2014/02/inkisafetdirici tlim-muhitininmahiyyti.html
4. Grubaugh. S., Houston. R. (1990). "Establishing a Classroom Environment That Promotes Interaction and Improved Student Behavior," The Clearing House , Vol. 63, No. 8, 375 p.
5. Caroline. A., Gaurdino, Fullerton. E. (2010). "Changing Behaviors by Changing the Classroom Environment."Teaching Exceptional Children, Vol. 42, No. 6, p.8.
6. Lundquist. P., Kjellberg. A., Holmberg. K. (2002). Evaluating effects of the classroom environment: Development of an instrument for the measurement of self-reported mood among school children. Journal of Environmental Psychology. p.22.
7. Spivack. J. A., Askay. A. D., Rogelberg. G. S. (2009). Contemporary physical workspaces: A review of current research, trends, and implications for future environmental psychology inquiry. In J. Valentin, & L. Gamez (Eds.), Environmental psychology new developments New York, Nova Science Publishers. p.37.
8. Dockrell. J. E., Shield. B. M. (2004). Children's perceptions of their acoustic environment at school and at home. Journal of the Acoustical Society of America. p.115.

Göndərilib: 09.05.2023 Qəbul edilib: 20.06.2023

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/22/42-44

**Cəlil Əlisultanov**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
piral_3@mail.ru

# İSTİXANA ŞƏRAİTİNDƏ POMİDOR BİTKİSİNİ MİNALAYICI GÜVƏ (TUTA ABSOLUTA) ZƏRƏRVERİCİSİNDƏN MÜHAFİZƏ ÜÇÜN TƏTBİQ EDİLƏN FEROMON TƏLƏLƏR

**Xülasə**

Pomidor, meyvələri insanlar tərəfindən ən çox istifadə olunan məhsullardandır. Pomidor becərilən sahələrdə istehsalçılar bir sıra zərərvericilər aşkarlasalar da pomidor bitkisinə qarşı əsas zərərverici dedikdə pomidor minalayıcı güvəsi başa düşülür. Respublikamızda, xüsusən örtülü pomidor sahələrində pomidor minalayıcı güvəsinin yayılması 68,7 % təşkil edir. Aqrotexniki tədbirlərin hazırlanması, davamlı sortların seçilməsi, növbəli əkinlərin tətbiqi, torpağın şumlanması və bitki qalıqlarının sahədən uzaqlaşdırılıb yandırılması Cənubi Amerika güvəsinə qarşı əsas mübarizə tədbirləri kompleksidir. Pomidor minalayıcı güvəsinə qarşı feromon tələlərinin istifadəsi effektiv metod hesab olunur.

Feromon tələlərinin istifadəsi nəinki zərərvericilərin sayını əhəmiyyətli dərəcədə azalda bilir, həmçinin kimyəvi qoruyucu vasitələrin istifadəsini minimuma endirə bilər, bəzi hallarda isə onların istifadəsindən imtina etdirə bilər.

Tətbiq etdiyimiz qara yapışqanlı, delta formalı, mayeli feromonlu tələlərin hər birinin tətbiqi müsbət nəticə vermişdir. Onlardan istifadə zamanı digər dərman preparatlarına nisbətən yüksək iqtisadi səmərəlilik əldə edilmişdir.

***Açar sözlər:*** *pomidor, Tuta absoluta, zərərverici, feromon tələ, mübarizə*

**Jalil Alisultanov**
Azerbaijan State Agrarian University
master
piral_3@mail.ru

## Pheromone traps used to protect tomato plants in greenhouse conditions from pest of minesweeper moth (Tuta absoluta)

**Abstract**

Tomato fruits are among the most commonly used by humans. The main pest of the tomato plant is the tomato miner moth, if manufacturers detect a number of pests in the fields where tomatoes are cultivated. In our republic, the spread of tomato miner moth, especially in covered tomato fields, is 68.7%. The development of agrotechnical measures, the selection of resistant varieties, the introduction of alternating plantings, plowing the soil and burning plant residues away from the site are the main set of measures to combat the South American moth. The use of pheromone traps against the tomato miner moth is considered an effective method. The use of pheromone traps can not only significantly reduce the number of pests, but also minimize the use of chemical protective equipment, and in some cases even abandon their use.

The application of each of the traps with black glue, delta-shaped, liquid pheromone, which we applied, gave a positive result. During their use, high economic efficiency was achieved compared to other medicinal preparations.

***Keywords:*** *tomato, Tuta absoluta, pest, pheromone trap, fight*

## Giriş

Tərəvəz bitkilərinin tərkibinin orqanizmin normal fəaliyyət göstərməsi üçün zəruri elementlərlə zəngin olması ilə əlaqədar olaraq onlar qida rasionumuzda xüsusi yer tutur. Bu bitkilərin istifadə norması isə insanların yaşadığı ərazinin coğrafi mühitindən, bölgənin milli xüsusiyyətlərindən asılı olaraq dəyişə bilər.

Respublikamızın əlverişli torpaq iqlim şəraiti bir sıra bölgələrdə tərəvəz bitkiləri ilə yanaşı, bostan bitkilərini də becərməyə imkan yaradır. Geniş becərilən tərəvəzlər sırasında pomidor xüsusi yer tutur.

Pomidor, meyvələri insanlar tərəfindən ən çox istifadə olunan məhsullardandır. Onun meyvələri yüksək dad keyfiyyətinə malik olmaqla, əsasən təzə halda, həmçinin, onun qırmızı və göy meyvələri konservləşdirilir, marinadlaşdırılır və turşuya qoyulur. Yetişmiş meyvələrdən isə, tomat–pasta, tomat–püre, pomidor şirəsi və s. məhsulların hazırlanmasında istifadə edilir (Məmmədova, Həsənova, 2018: 480).

Elmi-tədqiqat işinin məqsədi — pomidor əkinlərində zərərvericilərin növ tərkibinin dəqiqləşdirilməsi və başlıca növlərə qarşı ekoloji cəhətdən təhlükəsiz (bioloji) mübarizə tədbirlərinin işlənib hazırlanmasından ibarətdir. Tədqiqat işləri laboratoriya və tarla şəraitində yerinə yetirilmişdir. Pomidor becərilən sahələrdə istehsalçılar bir sıra zərərvericilər aşkarlasalar da pomidor bitkisinə qarşı əsas zərərverici dedikdə pomidor minalayıcı güvəsi başa düşülür. Bu zərərvericinin bir neçə adı vardır: Pomidor mişarlayıcısı, pomidor yarpaq mişarlayıcısı, Cənubi Amerika daxilə girən qurdu, Cənubi Amerika pomidor güvəsi. Qeyd edilən adlardan əksər vaxt müasir terminologiyada pomidor minalayıcı güvəsi (Tuta absoluta Meyr) istifadə edilir. Tuta absoluta zərərvericisi karantin obyekti hesab edilir. Bu zərərvericinin qida rasionuna əsasən, pomidor, badımcan, bibər, kartof və quşüzümü fəsiləsinə aid bir sıra tərəvəz bitkiləri daxil edilir. Aqrotexniki tədbirlərin hazırlanması, davamlı sortların seçilməsi, növbəli əkinlərin tətbiqi, torpağın şumlanması və bitki qalıqlarının sahədən uzaqlaşdırılıb yandırılması Cənubi Amerika güvəsinə qarşı əsas mübarizə tədbirləri kompleksidir. (Belosharkinoy, 2017: 288)

Respublikamızda xüsusən örtülü pomidor sahələrində pomidor minalayıcı güvəsinin yayılması 68,7 % təşkil edir. Bununla yanaşı, bu zərərverici pomidor sahələrinə nəzərəçarpacaq dərəcədə zədə vurur. Tuta absoluta zərərverici il ərzində tam 7 nəsil verə bilir.

Digər ölkələrin fermerlərinin təcrübələrinə əsasən deyə bilərik ki, kimyəvi insektisidlərin köməyi ilə bu zərərvericiyə qarşı mübarizə olduqca çətin və bahalıdır. Kimyəvi metodun effektivliyi pomidor güvəsinin inkişaf xüsusiyyətləri (larva yarpaq və ya meyvənin içərisindədir), həmçinin həşəratların dərmanlara qarşı tez bir zamanda davamlılıq yaratmaq qabiliyyəti ilə məhdudlaşır. Feromon tələlərinin istifadəsi effektiv metod hesab olunur. Tələlərdə həşəratları cəlb etmək üçün sintetik cinsi feromonlar istifadə olunur — həşəratların davamlılıq göstərmədiyi pomidor güvə feromonlarının analoqları. Feromon tələləri erkək fərdləri tutur, dişi həşəratlar isə mayalanmamış qalır və yumurta qoymur. Bununla yanaşı, su və sarı yapışqan tələləri istifadə olunur.

Feromon tələlərinin istifadəsi nəinki zərərvericilərin sayını əhəmiyyətli dərəcədə azalda bilər, həmçinin kimyəvi qoruyucu vasitələrin istifadəsini minimuma endirə bilər və bəzi hallarda isə onların istifadəsindən imtina etdirə bilər. Sintetik feromonlar bitkiləri həşərat zərərvericilərindən qorumaq üçün dünyada geniş və uğurla istifadə edilir. Feromon tələlərindən böyük kənd təsərrüfatları müəssisələri, fermer və fərdi təsərrüfatlar geniş istifadə edir (Organization, 2005: 434–435).

Feromon tələlərinin istifadəsi pestisidlərdən istifadənin alternativ üsuludur. Feromonlardan istifadə bitki mühafizəsi üçün alınan preparatlara qənaət etməyə və eyni zamanda ekoloji cəhətdən

təmiz məhsullar əldə etməyə imkan yaradır. Təhlükəsiz olduqlarından onların geniş istifadəsi üçün icazə verilir. Ətraf mühiti çirkləndirmirlər, insanlar və heyvanlar üçün təhlükəsizdirlər. Həşərat zərərvericisinin sintez edilmiş feromonu faydalı həşəratları tələyə cəlb etmir, çünki bu, yüksək spesifik birləşmədir. Feromon yapışqan tələlərdən geniş istifadə üçün fərqli çeşidləri mövcuddur. Feromonlu tələlərə nümunə olaraq qara yapışqanlı, delta formalı, mayeli feromonlu tələləri nümunə olaraq göstərmək olar. Qara yapışqan tələləri lentlərin üzərinə feromon qoymaqla sahəyə yerləşdirilir. Qara yapışqanlı lent tələləri hazırlamaq üçün lentdə xüsusi dəlik açılır, feromon həmin dəlikdə yerləşdirilərək üstündə bitki əkiləcək kokobit torbalarının qoyulduğu qatırların altında yerləşdirilir. Belə yerləşdirilməkdə məqsəd tuta puplarını əsasən torpaqda və bitkinin yerə yaxın hissələrinə qoyur ki, bu puplardan çıxan yetkin fərdlər də yerə yaxın uçmağa başlayır. Bu yetkin fərdlər cütləşmək üçün tərəfdaş axtarırlar və feromon erkək fərdləri cəlb edərək tələyə yapışdırır (Lietti, 2005: 113-119). Delta formalı tələlər də yapışqanlı feromonlu tələlərə aiddir. Bu tələlərin də əsas məqsədi havada uçan yetkin erkək tutaları cəlb edib yapışdırmaqdır. Bu tələləri sahədə tutanın uça bildiyi nisbətən kölgəli yerlərdə yerdən ən azı 50 sm və daha çox hündürdə asmaq lazımdır. Delta formalı yapışqanlı feromonlu tələlər əsasən sarı və göy rəngdə olurlar. Bu da əksər həşəratların göz spekterinə uyğun gəlir. Bu tələləri sahəyə şitil əkilməmişdən qabaq asmaq daha məqsədəuyğundur. Yapışqan feromon tələlərindən əlavə mayeli feromon tələlərindən də istifadə olunur. Bu tələlərin iş prinsipi belədir: xüsusi qablara su tökülür, suyun üzərinə 5-10 damcı bitki yağı əlavə olunur, qabın ortasına feromon yerləşdirilir və sahədə əsasən sıraların axırlarına, sıraların ortalarına və yan hissələrinə yaxın sıralara qoyulur ki, tuta əsasən bu zonalarda aktiv olur. Feromon uçan erkək tutanı cəlb edir və tuta suya düşür, qanadları islanaraq məhv olur. Suya əlavə olunan maye yağ isə həşəratın daha tez islanmasına koməklik edir. Əgər sahədə tuta absoluta varsa şitil əkilməmişdən əvvəl onu zərərsizləşdirmək mümkün olacaqdır. Yuxarıda qeyd olunan bütün tələlərdə eyni formalı feromonlardan istifadə olunur (Nannini, 2009: 215-218).

Sahədə tutanın monitorinqi qara yapışqan feromon tələlərinə əsasən aparılır. Vaxtında və planlı şəkildə aparılan monitorinqlər istixanada tuta absoluta populyasiya artımının dəqiq nəticəsini əldə etməyə imkan yaradır. Tutanın mövcudluğunu və sayını təyin etmək üçün həftədə 3 gün tələlərin üzərindəki tutaların sayı xüsusi işçi tərəfindən müəyyən edilərək cədvəl 3.dəki kimi qeydiyyat aparılır və bu qeydiyyata əsasən tutanın sahədə artma, azalma qrafiki qurulur.

## Nəticə

İstixana şəraitində pomidor əkinlərində pomidor minalayıcı güvəsinin yayılması 68,7 % təşkil edir. Feromon tələlərinin istifadəsi nəinki zərərvericilərin sayını əhəmiyyətli dərəcədə azalda bilir, həmçinin kimyəvi qoruyucu vasitələrin istifadəsini minimuma endirə bilər və bəzi hallarda isə onların istifadəsindən imtina etdirə bilər. Tətbiq etdiyimiz qara yapışqanlı, delta formalı, mayeli feromonlu tələlərin hər birinin tətbiqi müsbət nəticə vermişdir. Onlardan istifadə zamanı digər dərman preparatlarına nisbətən yüksək iqtisadi səmərəlilik əldə edilmişdir.

## Ədəbiyyat

1. Məmmədova. M., Həsənova. M. (2018). "Tərəvəzçilik" Bakı, 480 səh.
2. Belosharkinoy. O. (2017). "Fitopatologiya". INFRA-M., 288 s.
3. Organization, E. a. (2005). Tuta absoluta. Data sheets on quarantine pests. . *EPPO Bulletin*(35), 434–435.
4. Lietti. M. (2005). İnsecticide resistance in Argentine populations of Tuta absoluta (Meyrick) (Lepidoptera: Gelechiidae). *Neotropical Entomology,* 113-119.
5. Nannini. (2009). Preliminary evaluation of Macrolophus pygmaeus potential for the control of Tuta absoluta. *IOBC/WPRS Bulletin,*, 215–218.

Göndərilib: 06.03.2023 Qəbul edilib: 02.06.2023

## İÇİNDƏKİLƏR

### HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
### HUMANITIES AND SOCIAL SCIENCES

**Səadət BAYRAMOVA**
Zahid Xəlil və çağdaş uşaq ədəbiyyatı ......................................................................................7
**Şəhanə Əsgərova**
Metaforanın məcazlar sistemində yeri ......................................................................................11
**Ayshen Zeynalzadeh**
Application problems of IFRS in production enterprises ..........................................................15
**Azər Maqsudov**
Müəssisələrdə müştəri əlaqələri menecmentinin təşkilinin mövcud vəziyyətinin təhlili ..................19
**David Hüseynov**
Gənclər sosial işin tədqiqat obyekti kimi. Azərbaycan Respublikasında gənclərin məşğulluğunun dövlət tənzimlənməsi ......................................................................................23
**Gülcahan Quluzadə**
Azərbaycanda Bolonya prosesi: tələbələrin mobilliyi ...............................................................28
**Lamiyə Əsədova**
Dövlət idarəetmə orqanlarında sosial medianın ictimaiyyətlə əlaqələrə təsiri ..................................31
**Mirbaba Agharahimov**
Digitized cultural heritage as an object of intellectual property .................................................35
**Səma Rəhimova**
Sinifdəki fiziki mühitin şagirdlərin akademik bacarıqlarına təsiri ..................................................39

### TƏBİƏT ELMLƏRİ
### NATURAL SCIENCES

**Cəlil Əlisultanov**
İstixana şəraitində pomidor bitkisini minalayıcı güvə (Tuta absoluta) zərərvericisindən mühafizə üçün tətbiq edilən feromon tələlər ......................................................................42

İmzalandı: 27.06.2023
Formatı: 60/84, 1/8
H/n həcmi: 5.75 ç.v.
Sifariş: 652

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az

